
ADNAN OKTAR
(HARUN YƏHYA)
ATATÜRK
və
GƏNÇLİK

HARUN YƏHYA (ADNAN OKTAR)

# ATATÜRK VƏ GƏNCLİK

*Ulu Öndərin gəncliyə baxışı, idealındakı gənc və ona tapşırılan sərhədsiz vəzifə*

# MÜNDƏRİCAT


Giriş ..... 7

Atatürkün Türk gəncliyinə baxışı ..... 9

Cümhuriyyət dövründə Türk gəncliyi ..... 16

Atatürkün idealındakı gənclik ..... 28

Nümunəvi Türk gənci: Atatürk ..... 52

Nəticə ..... 64

Təkamül yalanı ..... 65

Ədəbiyyat ..... 87

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə

edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# Giriş

Gənclik hər millət üçün əhəmiyyətli gücdür. Şüurlu və məsuliyyət sahibi gənclik, o millətin ümididir, gələcəyinin zəmanətlərindəndir. Xüsusilə də gənc əhaliyə sahib olan Türkiyə üçün (ölkəmizdə əhalinin yarısı iyirmi yaşın altındadır) bu imkanın yaxşı qiymətləndirilməsi, Türk Millətinin layiq olduğu mədəni cəmiyyətlər səviyyəsinə çatması üçün lazımlıdır. İçində yer aldığı coğrafiya və sahib olduğu tarixi miras Türk Millətinin üzərinə çox əhəmiyyətli məsuliyyətlər yükləməkdədir. Aydın, milli dəyərlərini qoruyan, irəli fikirli gənc bir nəslin yetişməsi, sahib olduğumuz şanlı tarixlə birləşdirildiyində, Türkiyə sadəcə irəli cəmiyyətlər səviyyəsinə çatmaqla qalmayacaq, olduqca geniş coğrafiyada bir çox ölkəyə liderlik edə biləcək mövqeyə gələcəkdir.

Keçdiyimiz əsrin ən böyük dövlət adamlarından biri olaraq qəbul edilən Mustafa Kamal Atatürk də, “Gələcək gənclərin, gənclər isə müəllimlərin əsəridir”[1] sözləri ilə gəncliyə xüsusi əhəmiyyət verdiyini vurğulamış, gənclərin təhsili və şüurlandırılması mövzularına diqqət çəkmişdir. Türk gəncliyinə çox güvənən və bunu hər fürsətdə vurğulayan Atatürk, ölkə torpaqlarının bölünməz bütünlüyünü və Cümhuriyyəti qoruma vəzifəsini də bu səbəblə gənclərə vermişdir.

Atatürkün Türk gəncliyinə duyduğu güvənin təməlində, gənclərin milli mübarizənin ilk dövrlərindən etibarən özünə verdikləri dəstək durur. Bununla birlikdə Cümhuriyyətin quruluş illərində də gənclər, Atatürk qanunlarının qorunub ayaqda saxlanılmasında əhəmiyyətli rolları boyunlarına götürmüşlər. İndiki vaxtda isə istər ölkəmizin içində olduğu siyasi və iqtisadi şərtlər, istər beynəlxalq əlaqələrdə baş verən əhəmiyyətli inkişaflar Türk gəncliyinin yenə əhəmiyyətli məsuliyyətlər götürməsini tələb etməkdədir. Lakin gənclərimizin bir hissəsi bu məsuliyyəti öz üzərinə götürə biləcək potensiala sahib deyil, bir hissəsi də məsuliyyətə talib olmaqla birlikdə nə etməsi lazım olduğunu bilməməkdədir. Bu səbəbdən gənclərimizə doğru hədəflər təyin etmək, bu hədəflərə çata bilmələri üçün yol göstərmək çox böyük əhəmiyyət daşımaqdadır. Bu, həm gənclərimizin fərdi inkişafı, həm də ölkəmizin gələcəyi baxımından hər kəsin boynuna götürməsi lazım olan vəzifədir.



Bu vəzifəni yerinə yetirmək üçün yola çıxanların ilk edəcəkləri isə Atatürkün həyatına, gənclər üçün təyin etmiş olduğu yola baxmaq olmalıdır. Ediləcək sadə bir araşdırma belə, Atatürkün bu sahədə təməl hədəfləri və bu hədəflərə çatacaq ən vurucu yolları təsbit etmiş olduğunu göstərəcək. Atatürkün Türk gəncliyinin təhsili, inkişafı, sahib olması lazım olan əxlaqi xüsusiyyətləri, xarakteri və məsuliyyətləri üzərinə etdiyi izahlar rəhbər xüsusiyyəti daşımaqdadır. Ancaq bunun üçün əvvəlcə Atatürkün doğru tanınması və göstərdiyi yolun doğru başa düşülməsi əsas şərtdir. Tarixin ən əhəmiyyətli dahilərindən biri olan Atatürk, milli və mənəvi dəyərlərinə bağlı, dürüst, vicdanlı, ağıllı, irəli fikirli, cəsur, mərd, təvazökar, ədalətli, həqiqi bir Türk milliyyətçisi idi. Atatürk vətən və millət sevgisini üstün tutan, mədəni cəmiyyətlər səviyyəsinə çatmağı hədəfləyən, eyni zamanda da bu cəmiyyətləri təqlid etməkdən çəkinən, öz mədəniyyətimizə və tariximizə sahib çıxmağımızın lazım olduğunu vurğulayan, birləşdirici və suveren bir həyat fikrinə sahib idi. Atatürk, Cümhuriyyəti əmanət etdiyi gənclərin də həm özünün sahib olduğu xüsusiyyətləri daşımalarını, həm də hədəflədiyi gəncliyin sahib olması lazım olan xarakteri tam mənası ilə qavrayıb tətbiqə keçirmələrini məqsəd qoymuşdu.

Bu kitabın məqsədlərinin başında bir tərəfdən Atatürkün gəncliyə olan baxış prizmasını ələ alarkən, bir tərəfdən də gənclərin Atatürkü doğru anlamalarına kömək olmaq vardır. Günümüzdəki gəncliyin həyati problemlərinin başında Atatürkü gərəyi kimi tanımamaq, milli və mənəvi dəyərlərimizdən uzaqlaşmaq və millət olma şüuruna laqeyd olmaq gəlməkdədir. Atatürkçülüyü öz əyri ideologiyalarına örtük olaraq istifadə etmək və bu şəkildə gəncləri doğru yoldan uzaqlaşdırmaq istəyən kütlələrin sərf etdikləri səy göz qarşısında saxlanılsa, gəncliyin Atatürkü və Atatürkün özləri üçün təyin etmiş olduğu idealı doğru qavramalarının nə qədər təcili ehtiyac olduğu daha yaxşı aydın olacaq. Unudulmamalıdır ki, Türkiyənin gələcəyi, Mustafa Kamal Atatürkün hamımıza vəsiyyət etmiş olduğu kimi, vicdanlı, sağlamfikirli, gözəl əxlaqlı, dindar, müasir, mütərəqqi, vətənpərvər, milliyyətçi, itaətli, şəxsiyyətli bir nəslin yetişdirilməsinə və bu nəslin əzminə, şövqünə və işlərinə bağlıdır.

# Atatürkün Türk gəncliyinə baxışı

Atatürkün həyatını araşdıran və dünyagörüşünü bilən hər kəs, gənclərin Atatürk üçün xüsusi mənası olduğunu da bilər. Atatürk üçün gənclik, işıqlı gələcək üçün əhəmiyyətli bir gücdür, Cümhuriyyətin üzərinə inşa edildiyi bütün dəyərləri qoruyub yaşadacaq olan bir qüvvədir. Buna görə də, Atatürk gəncliyə çox böyük dəyər vermiş və onlara hər zaman güvənmişdir. Milli Mübarizə üçün yola çıxdığı ilk günlərdən etibarən özünün ən əhəmiyyətli dəstəkçilərinin gənclər olacağını tez-tez ifadə edən Atatürk, müstəqilliyin qazanılıb Cümhuriyyətin qurulmasından sonra da gənclik mövzusuna xüsusi əhəmiyyət göstərmişdir. Yurd gəzintilərində ümumiyyətlə əsas olaraq liseyləri ziyarət edib gənclərə birbaşa xitab etmiş, gənclərlə davamlı qurmağa diqqət göstərmişdir. Danışıqlarında tez-tez gənclərdən gözləntilərini və necə bir gənclik istədiyini dilə gətirən Atamız, böyük nitqin son hissəsində yer alan "Gəncliyə Xitab" ilə də gəncliyin hər cür problemin öhdəsindən gələ biləcəyinə duyduğu inancı vurğulamışdır.

Atatürkün liderliyini etmiş olduğu müstəqillik mübarizəsi, bu mübarizənin aparıldığı şərtlər və yeni qurulan Türkiyə Cümhuriyyətini gözləyən daxili və xarici təhlükələr nəzərə alındığında, Atatürkün gəncliyə niyə bu qədər əhəmiyyət verdiyi daha yaxşı aydın olacaq. Ölkənin dörd bir tərəfinin düşmən işğalı altında olduğu, dövlət nüfuzunun demək olar ki, tamamilə ortadan qalxdığı, eqoist və vəziyyətdən öz mənfəətlərinə pay çıxarmağa çalışan kəslərin əleyhinə fəaliyyətlər göstərdiyi bir mühitdə birliyin təmin edilməsi, bütün imkanların milli mübarizə bayrağı altında birləşdirilməsi müstəqillik döyüşünün ən böyük çətinliklərindən olmuşdur. Belə bir dövrdə gənclər, aldığı bütün qərarlarda Atatürkə bağlılıq göstərmiş, döyüş əsnasında da cəbhədə və arxa cəbhədə əhəmiyyətli müvəffəqiyyətlər əldə etmişlər. Bununla birlikdə Atatürk baxımından gənclərin ən əhəmiyyətli məsuliyyəti Cümhuriyyətin elan edilməsi ilə başlamışdır. İstər dünyanın içində olduğu siyasi qeyri-sabitlik, istər yeni Cümhuriyyətə qarşı daxili və ya xarici qaynaqlı qurulan müxtəlif sui-qəsdlər ən az milli mübarizə dövrü qədər çətin bir dövrün yaşanmasına səbəb olmuşdur. Bir tərəfdən iqtisadi çətinliklər, bir tərəfdən döyüş sonrası baş verən sosial problemlər kimi yeni qurulan bir dövlətin qarşılaşdığı müxtəlif problemlərin aşılmasında, Atatürk gənclərin dinamizminə, enerjilərinə və hamısından əhəmiyyətlisi Atatürk



"Bir gün xalqı, sizin kimi məni anlamış gəncliyə buraxacağıma görə çox məmnun və xoşbəxtəm. " Mustafa Kamal ATATÜRK

qanunlarına duyduqları sədaqətə güvənmişdir. Buna görə Türkiyənin gələcəyinin ən əhəmiyyətli dayaqlarından biri olaraq gördüyü gəncliyə belə səslənməkdədir:



*"Gənclər! Cəsarətimizi möhkəmlədən və davam etdirən sizsiniz. Siz almaqda olduğunuz təhsil və mədəniyyət ilə, insanlıq fəzilətinin, vətənin, fikir azadlığının ən qiymətli simvolu olacaqsınız. Ey yüksələn yeni nəsil! Gələcək sizindir. Cümhuriyyəti biz qurduq; onu yüksəldəcək və davam etdirəcək olan sizsiniz."2*

Bu sözləri ilə Cümhuriyyəti sadəcə qorumaq deyil, yüksəltmək vəzifəsini də gənclərə verən Atatürk, bunun ancaq gözəl əxlaqı, ədaləti, haqsızlıqla və zülmlə mübarizə etməyi, milli və mənəvi dəyərlərimizə bağlı qalmağı, tariximizlə qürur duymağı bununla birlikdə üzümüzü də davamlı gələcəyə dönük tutmağı nəzərdə tutan qanunlarının ayaqda saxlanılması ilə təmin ediləcəyinə diqqət çəkmişdir. "İstəyərəm ki, daim idealımı gənclərə təlqin edəsiniz və daim qorumaq barəsində çalışasınız"[3] sözləri ilə dilə gətirilən bu istək, bir mənada Atamızın bizlərə ən əhəmiyyətli miraslarından biridir. Bunu yerinə yetirə bilmək üçün səy göstərmək, Atatürkü anlamaq və izah etmək üçün fəaliyyət göstərmək gəncliyin şüurlanmasında əhəmiyyətli rol oynayacaq, beləcə Atatürkün başlatmış olduğu islahatlar tam olaraq hədəfinə çatacaq.

## Atatürk gənc nəsilə güvənirdi

*"Millətin bağrından təmiz bir nəsil yetişir. Bu əsəri ona buraxacağam və gözüm arxada qalmayacaq"[4] deyən Mustafa Kamal Atatürk, Türk gəncliyinə həmişə böyük güvən duymuştur:*

*"Gənckliklə fəxr edirəm və gəncliyə güvənirəm!"5*

Atatürkün Türk gəncliyinə duyduğu güvən, 1918-ci ildə Mudros müqaviləsinin imzalandığı günlərə söykənir. İşğalın ən ağır günlərinin yaşandığı və ölkə daxilində qeyri-sabitliyin hakim olduğu günlərdə, Atatürk gənclərin özünə ümid verdiyini belə ifadə etməkdədir:

*"Hər şeyə baxmayaraq şübhəsiz bir nura doğru getməkdəyik. Məndə bu inancı yaşadan qüvvə tək əzm məmləkət və millət haqqındakı sonsuz sevgim deyil, bu günün qaranlıqları, əxlaqsızlıqları, şarlatanları içində, sırf vətən və həqiqət eşqi ilə işıq səpməyə və axtarmağa çalışan bir gənclik gördüyümdür."6*

1919-cu ildə etdiyi bir başqa çıxışında isə mövcud şərtlərin gələcəkdə əsla unudulmamağını ifadə edərkən, gənc nəsilə duyduğu etibarı bir daha dilə gətirmişdi:



> *“Başımıza nələr hörülmək istənildiyi və necə müqavimət göstərdiyimiz və daha doğrusu millətin arzu və əməllərinə uyaraq və onun köməyi ilə necə çalışdığımız görülməli və gələcək nəsillər üçün ibrət və oyanıqlığı tələb etməlidir. Onsuz da hər şey unudulur. Lakin biz hər şeyi gəncliyə buraxacağıq, o gənclik ki, heç bir şeyi unutmayacaq; gələcəyin işıq saçan çiçəkləri onlardır. Bütün ümidim gənclikdədir.”7*

Atatürkün gəncliyə bu dərəcə güvənməsinin təməlində doğru təhsil almış, şəxsiyyəti tam mənası ilə inkişaf etmiş bir gəncliyin nələrə güc yetirə biləcəyini bilməsi durur. Atatürk gəncliyin cəmiyyətdəki yerini və sosial dəyişmədəki əhəmiyyətini qavramış və gənc nəslin boynuna götürəcəyi dinamizmə inanmışdır. Ağıllı, doğrunu səhvdən ayıra biləcək vicdana sahib, mənəvi olaraq güclü, əxlaqlı, mədəni, ölkənin problemləri ilə əlaqədar, bu problemlərə qalıcı həllər yarada bilən, milli xarakteri təmsil edən, çalışqan, vətənpərvər, tarixi şüura sahib bir gəncliyin ölkə necə bir vəziyyətə düşürsə düşsün hər çətinliyi aşa biləcəyi bir gerçəkdir. Bu xüsusiyyətdə bir gənc nəsil cəmiyyətə cəsarət və güc verəcək, o cəmiyyəti davamlı daha irəliyə daşıyacaq. Atatürk də “Gənclər, cəsarətimizi gücləndirən və davam etdirən sizsiniz”[8] deyərkən, Türk

gəncliyinin bu xüsusiyyətlərə sahib olan nəcib bir gənclik olduğuna inanmışdır. Dumlupınar döyüşünün ikinci yubileyində deyilən bu sözlərdə Atatürkün gəncliyə inancı və etibarı açıqca görülməkdədir.

Gəncləri, “bu günün təminatı, sabahın zəmanəti” olaraq görən Atatürkə görə Türk gəncliyi “tərbiyə və mədəniyyəti ilə vətən sevgisinin, düşüncə azadlığının ən qiymətli simvolu olacaq.” Bunun üçün gəncliyin məsuliyyətlərini dərk etmədə, Atatürk qanunlarının fikirlərini və ideologiyasını mənimsəmiş və onun yolundan ayrılmamağa əzm etmiş bir gəncliyin olması şərtdir. Atatürk bu əzm və şövqün ölçüsünü, yorulmadan onu izləyəcəklərini söyləyən bir qrup gəncə belə təsvir etmişdir:

> *“Siz gənc yoldaşlar, yorulmadan məni izləməyə söz vermisiniz. Bax mən bu sözdən çox duyğulandım. Yorulmadan məni izləyəcəyinizi söyləyirsiniz. Lakin yoldaşlar yorulmaq nə deməkdir? Əlbəttə yorulacaqsınız. Mənim sizdən istədiyim şey yorulmamaq deyil, yorulduğunuz zaman belə dayanmadan getmək, yorulduğunuz dəqiqədə dinləncəlmədən məni izləməkdir. Yorğunluq insan üçün təbii vəziyyətdir. Lakin insanda yorğunluğu məğlub edə biləcək mənəvi bir güc var ki, məhz bu güc yorulanları dincəltmədən yürüdər.*

Sizlər, yəni yeni Türkiyənin gənc övladları, yorulsanız belə məni izləyəcəksiniz. Mən bu axşam bura tək bunu izah etmək üçün gəlmişəm. Dincəlməmək üzrə getməyə qərar verənlər heç vaxt yorulmazlar. Türk gəncliyi hədəfə, bizim yüksək idealımıza doğru dayanmadan, yorulmadan gedəcək.”9



Mustafa Kamal, Anafartalar Qrup Komandanlığı vəzifəsi əsnasında mübarizə yoldaşları ilə birlikdə görülməkdədir.

## Qurtuluş müharibəsində gənclərin üzərinə götürdüyü böyük məsuliyyət

Atatürkün başlatdığı müstəqillik müharibəsinin nəticəsində, "xəstə adam" diaqnozu qoyulan rəhbərlik, müasir, güclü və müstəqil yeni bir dövlət qurmuşdur. Atatürk bu mübarizəsi ilə insanlığa çətinliklər qarşısında qorxmamağın əhəmiyyətini, əzmin və inancın gücü ilə hər cür çətinliyin keçilə biləcəyini, Türk Millətinin sahib olduğu əsl gücün necə böyük müvəffəqiyyətlər qazana biləcəyini göstərmişdir. Türk Millətinin 1918-ci ildə mövcud qaranlıq tablonun dəyişdirilməsində, vətən torpaqlarının düşmən işğalından xilas olub Cümhuriyyətin təməllərinin atılmasında Türk gənclərinin böyük köməyi olmuşdur.

Gənclər Qurtuluş Müharibəsi əvvəlində və sonrasında həmişə aktiv olaraq milli mübarizədə iştirak etmişlər. Atatürk, milli mübarizənin zəfərində gənclərin nə qədər əhəmiyyətli məsuliyyəti yükləndiklərini görərək belə demişdir:

> *“Gənclər! Vətənin bütün ümid və gələcəyi sizə, gənc nəsillərin anlayış və enerjisinə bağlanmışdır.”(1919)10*

Atatürkün gənclərə duyduğu güvən, xüsusilə milli mübarizə boyu gənclərin dayanıqlılığına, müstəqillik mövzusunda göstərdikləri iradəyə, fədakarlığa və cəsarətlərinə şahid olması ilə güclənmişdir. Gənclərin müstəqilliyinə düşkünlükləri, azadlıq və müstəqilliyin özünün xarakteri olduğunu söyləyən Atatürk üçün çox əhəmiyyətlidir. Bir xalqda şərəfin, ləyaqətin, namusun varlığının və davamlılığının, o xalqın azadlıq və müstəqilliyə sahib olması ilə mümkün olduğuna inanan Atatürk, bu mövzudakı düşüncələrini belə dilə gətirməkdədir:



Atamız, Sivas Konqresi günlərində yoldaşları ilə.

> *“Mən yaşaya bilmək üçün qəti olaraq müstəqil xalqın övladı olaraq qalmalıyam. Bu səbəblə, milli müstəqillik məncə həyat problemidir. Xalq və ölkə faydasının tələb etdiyi, insanlığı meydana gətirən xalqlardan hər biri ilə sivilizasiya gərəyi olan dostluq və siyasət əlaqələrinə böyük bir həssaslıqla dəyər verirəm. Ancaq mənim xalqımı məhbus etmək istəyən hər hansı bir xalqın, bu arzusundan imtina edənə qədər amansız düşməniyəm.”11*

Milli birlik və bərabərliyin təmin edilməyə və ölkənin gələcəyinin təyin olunmağa çalışıldığı ilk günlərdə isə, tam müstəqillik tərəfdarı olmayan çevrələrin varlığı, səlahiyyət rəhbərliyi ehtimalını gündəmə gətirmişdir. İstər ölkənin mövcud şərtlərin ağırlığı, istərsə də fədakarlıqdan qaçan bəzi qrupların təlqinləri, səlahiyyət təklifinin ölkənin gələcəyinin müzakirə edildiyi ən əhəmiyyətli yığıncaqlardan biri olan Sivas Konqresində ələ alınmasına səbəb olmuşdur. Məhz bu dövrdə gənclərin böyük əksəriyyətinin, tək həlli tam müstəqilliyi müdafiə edən Atatürkə dəstək olmaqda görmələri, Cümhuriyyət tarixinin əhəmiyyətli hadisələrindəndir. Sivas Konqresinə tibb tələbələrini təmsilən qatılan bir aparıcının Mustafa Kamala xitabən dediyi bu sözlər, Türk gəncliyinin müstəqillik mübarizəsində hər tərəfli iştirak edəcəyini ortaya qoymuşdur:



*"Paşam, üzvü olduğum tibbi tələbələri məni bura istiqlal savaşımızda müvəffəq olmaq yolundakı vəzifəyə qatılmaq üzrə göndəriblər. Səlahiyyət altında qalmağı qəbul edə bilmərəm. Əgər qəbul edəcək olanlar varsa, bunlar hər kim olursa olsun şiddətlə rədd edər və qınayarıq. Fərz edək, səlahiyyət fikrini siz qəbul etsəniz, sizi də rədd edər, Mustafa Kamalı lənətləyərik."12*

Atatürk gənclərin bu rəftarından çox məmnun qalmış, müstəqillik üçün gözə aldıqları fədakarlıqları və göstərdikləri cəsarəti təqdirlə qarşılamışdır:

*"Yoldaşlar, gəncliyə baxın, Türk milli bünyəsindəki əsilzadə qanın ifadəsinə diqqət yetirin. Övlad, rahat ol. Gəncliklə fəxr edirəm və gəncliyə güvənirəm. Biz azlıqda olsaq belə səlahiyyəti qəbul etməyəcəyik... Parolumuz təkdir və dəyişməzdir: Ya istiqlal ya ölüm."13*

Türk gəncliyinin göstərdiyi bu qərarlı rəftar, müstəqillik döyüşü boyu da davam etmişdir. Cəbhədə vətən üçün döyüşən gənclərin yanında, arxa cəbhədə iştirak edənlər də etdikləri təşkilatçılıqla və təşkil etdikləri mitinqlərlə, xalqın müstəqillik fikri ətrafında birləşməsini təmin etmişlər. Yoxsulluq, aclıq, qeyri-sabitlik, işğal, daxili üsyanlar, düşmənlə əməkdaşlıq edən xainlər və ölüm təhlükəsi gəncləri qorxutmamış, müstəqillik onlar üçün ən qiymətli ideal olmuşdur. Bütün bunlar Atamızın, müstəqilliyin şübhəsiz əldə ediləcəyinə dair inancını daha da gücləndirmişdir:

*"Vətən mütləq xilas olacaq, millət mütləq xoşbəxt olacaq. Çünki öz qurtuluşunu, öz xoşbəxtliyini məmləkətin və millətin xoşbəxtlik və qurtuluşu üçün fəda edə bilən vətən övladları çoxdur."14*

# Cümhuriyyət dövründə Türk gəncliyi

Qurtuluş müharibəsinin zəfərlə sona çatmasından sonra, ölkə daxilində daha da əhəmiyyətli bir mübarizə başladı: Müstəqilliyini qazanan bu yeni dövləti gücləndirmək və yüksəltmək. Bu dövrdə mədəni, iqtisadi və sosial bir çox islahatın təcili edilməsi və bu islahatların cəmiyyət tərəfindən qəbul görməsinin təmin edilməsi lazım idi. Atatürk bu dövrdə gənc nəsil üzərində əhəmiyyətlə dayanmış, gəncliyin təhsili və şüurlandırılması fundamental mövzular arasında olmuşdur. Cümhuriyyətin ilk illəri, başda Atatürk olmaq üzrə, dövlət adamları və ziyalılar üçün "gəncliyin Cümhuriyyətin qoruyucuları" olduğu anlayışının hakim olduğu illərdir. Cümhuriyyət gənclərə əmanət edilmiş və bu mövzuda gəncliyə böyük ümid bağlanmışdır. Atatürk bu böyük hədəfini isə belə təsvir etmişdi:



> *"Mənim üçün bir tək hədəf var. Cümhuriyyət hədəfi. Bu hədəfə çatmaq üçün, müəyyən yoldan gedən yoldaşların müvəffəqiyyətli olması üçün, tutulan doğru yolda, namuslu yolda çox işləmək və təsirli olmaq lazımdır."15*

Atatürk, Qurtuluş Müharibəsi əsnasında əldə edilən müvəffəqiyyətin, Türkiyənin gələcəyinin çox aydınlıq olacağının ən əhəmiyyətli işarələri olduğuna inanırdı:

> *"Sizin kimi gənclərə malik olduqca, bu vətən və millətin, indiyə qədər əldə etməyi bacardığı zəfərlərin üstündə daha böyük zəfərlər əldə edəcəyindən şübhə etmirəm."16*

Müstəqillik mübarizəsi ilə əldə edilən zəfər, uzun illərdir davam edən döyüşlərdən, iqtisadi, siyasi və sosial sahələrdə yaşanan böyük tənəzzüldən çox əhəmiyyətli dərslər alınmasını təmin etmişdi. Bu dərslər, həm Cümhuriyyət qanunlarının dəyərinin və əhəmiyyətinin qavranmasını təmin edəcək, həm ölkəmizi bir daha bənzər vəziyyətə düşməkdən qoruyacaq, həm də yenə oxşar hadisələrlə qarşılaşacaq vəziyyətdə bu çətinliklərin necə aşılacağını bizlərə göstərəcək əhəmiyyətli dərslərdir. Atatürk də, xüsusilə gənclərin, Qurtuluş Müharibəsi boyu qazanılan tarixi təcrübələri çox yaxşı qiymətləndirmələri lazım olduğuna diqqət çəkmişdir. Atatürkə görə, bu təcrübələr gəncləri yetkinləşdirmiş və onları, məsuliyyətlərinin əhəmiyyətini qavraya biləcəkləri mövqeyə gətirmişdi:

> *"Gənclərimiz və ziyalılarımız nə üçün getdiklərini və nə edəcəklərini əvvəlcə öz düşüncələrində yaxşıca qərarlaşdırmalı, onları xalq tərəfindən yaxşıca mənimsənib qəbul edilə bilər hala gətirməli, onları ancaq ondan sonra ortaya atmalıdır. Mən çox ümidliyəm ki, gənclərimiz bunu edəcək dərəcədə yetkindir. Bilirəm ki, qocalaramız kimi gənclərimizin də təcrübələri var. Çünki millətimizin yaxın illərdə gördüyü çətin dərslər, yaxın illərin ən sıx hadisələr ilə dolu olması, dövrümüzün gənclərini əvvəlki dövrlərin qocaları qədər və bəlkə onlardan daha çox hadisənin şahidi, bu səbəbdən gəncliyimizi qocalar qədər təcrübə sahibi etdi. Hər hansı bir gəncimiz yaşadığı dövrün bəlkə üç qatı nisbətində hadisəyə şahid olduğu üçün hər gəncimiz üç misli yaş sahibi sayıla bilər, onları da qocalar kimi təcrübəli qəbul edə bilərik. Gəncliyimizin sahib olduğu bu təcrübələrdən istifadə edərək çalışqan, məmləkətə faydalı və böyük imanla təchiz edilmiş olaraq vəzifələrini haqqı ilə yerinə yetirəcəklərinə əminəm."17*

> *"Biz hər şeyi gəncliyə buraxacağıq... Gələcəyin ümidli, aydın çiçəkləri onlardır. Bütün ümidim gənclikdədir."18*



Cümhuriyyətin fəxri olan Türk gəncliyi, Türklük şüurunun zirvəyə çatdığı Atatürk dövründə, dinamik, çalışqan, elmi özünə yol göstərici tanımış, müasir, hər şeyini xalqına həsr etmiş, xalqını sivilizasiya səviyyəsinin üzərinə çıxarmağı özünə məqsəd etmiş bir gənclik idi. Xalqın həqiqi gücünü və enerji cövhərini təmsil edirdi. Necə ki, irəliləyən illərdə Türk gəncliyi Atatürkün bu etibarını boşa çıxarmamış, yıxılmış və təxrib olmuş vətən torpaqlarından, inkişaf etmiş ölkələr səviyyəsinə çatmaq üçün gücünün son nöqtəsinə qədər çalışan bir güc halına gəlmişdir. Xüsusilə də Cümhuriyyətin quruluşundan Atatürkün aramızdan ayrıldığı 1938-ci ilə qədər keçən müddət Türk Millətinin müasir bir ölkə olma məqsədi ilə böyük islahatlara imza atdığı, dinamik bir dövr olmuşdur. Atatürkün Türk gəncliyinə xitab etdiyi bəzi çıxışları bu şəkildədir:

> *“Gənclər üçün vətən işlərində ölmək mümkün ola bilər. Lakin qorxmaq əsla!(1919)”19*

> *"Gələcək üçün hazırlanan vətən övladlarına, heç bir çətinlik qarşısında qorxmayaraq tam bir səbir və mətanətlə işlərini və təhsil alan uşaqlarımızın ana və atalarına da uşaqlarının təhsilinin tamamlanması üçün heç bir fədakarlıqdan çəkinməmələrini tövsiyə edirəm."20*

> *"Gənclər cəsarətimizi möhkəmlədən və davam etdirən sizlərsiniz. Siz, almaqda olduğunuz tərbiyə və mədəniyyət ilə insanlıq və mədəniyyətin, vətən sevgisinin, fikir azadlığının ən qiymətli təcəssümü olacaqsınız. Yüksələn yeni nəsil, gələcək sizsiniz. Cümhuriyyəti biz qurduq, onu yüksəldəcək və yaşadacaq olan sizsiniz."21*



Atatürk, 1933-cü ildəki İstanbul Universiteti ziyarətində tələbələrlə birlikdə.

Atatürk göstərdiyi yola uyğun gəldikləri təqdirdə, gələcək nəsilləri gözəl günlərin gözlədiyinə də toxunaraq gəncləri bu yolda qərarlı addımlarla irəliləməyə təşviq etmişdir.

> *“Əsla şübhə yoxdur ki, Cümhuriyyətin gələcək övladları bizdən daha çox rahata qovuşmuş və bəxtiyar olacaqlar.”(1927)22*

Atatürkün Türk gəncliyinə inancını və etibarını göstərən bir əhəmiyyətli hadisə də Hatay müzakirəsi əsnasında reallaşmışdır.

Fransız komissarı Ponçet Ankaranı ziyarəti əsnasında, Ankara Palasa gələn Atatürk ilə qarşılaşır. Atatürk Ponçeti masasına dəvət edir. Günün əhəmiyyətli problemi Hatay məsələsidir. Fransız Hökuməti çətinliklər çıxarmaqda, bu problemin sülh içində həll edilməsinə mane olmağa çalışmaqdadır. Atatürk masasında olan Ponçetə bu şəkildə xitab edir:

> *“- Hatay məsələsi mənim şəxsi iddiamdır və Məni üzürsünüz. Qorxuram ki məni, məsələni başqa cür həll etməyə məcbur edəsiniz.*

Atatürk bu sözləri yüksək səslə Türkcə söyləyir və ətrafındakı insanlar da onu dinləyirdi. Atatürkün Fransanın Suriya komissarı Ponçetə qarşı “məni üzürsünüz” sözü salonda çox geniş bir təsir meydana gətirdi. Orada olan bir gənc ayağa qalxaraq, olduqca yüksək bir səslə belə dedi:

- Atatürk kədərlənmə, arxanda biz varıq!

Atatürk yerində başını səsin gəldiyi tərəfə doğru çevirdi. Qaşları qalxmış, çöhrəsi sevgi ilə dolu olaraq gəncə belə cavab verdi:

- Bilirəm övladım, onu bildiyim üçün belə danışıram.”23

Bu nümunədən də Atatürkün arxasında gənclərdən ibarət böyük bir gücün olduğunu bildiyini anlayırıq.



Cümhuriyyət başçısı Mustafa Kamal Atatürk bir gəncin verdiyi ərizə haqqında müzakirə əsnasında.

## Təhsilin əhəmiyyəti

Kitabın əvvəlində də vurğuladığımız kimi, gənclik bir millətin varlığının davamını təmin edən çox əhəmiyyətli qüvvədir. Ancaq bu gücün gərəyi kimi istifadə edilə bilməsi və millətə fayda təmin edə bilməsi üçün gənclərin yaxşı təhsil almaları, şüurlandırılmaları və yaxşı istiqamətləndirilmələri lazımlıdır. Əksinin o ölkə üçün necə inkişaflara səbəb ola biləcəyinin nümunələri yaxın keçmişimizdə yaşanmışdır. Kifayət qədər şüurlanmamış, milli və mənəvi dəyərlərdən uzaqlaşmış gənclərin təhlükəli ideologiyaların təsirində qalmaları, ölkənin təhlükəsizliyini və bütünlüyünü təhdid edən ünsür halına gəlmişdir.

Buna görə Atatürk gəncliyin yaxşı yetişdirilməsini və şüurlandırılması lazım olduğunu tez-tez təkrarlamışdır. Doğru məlumatlarla və müsbət fikirlərlə işıqlandırıldığında gəncliyin Türk Millətinin yüksəlişində əhəmiyyətli bir rol oynayacağını xatırlatmışdır:

> *“Gəncliyi qəti şəkildə ideal sahibi və ölkə ilə əlaqədar olaraq yetişdirmək hər kəsin, hamımızın, hər dövlət adamının əsas vəzifəsidir. Gəncliyi yetişdirin. Onlara elm və mədəniyyətin müsbət düşüncələrini verin. Gələcəyin aydınlığı onlarla qovuşacaqsınız. Azad fikirlər tətbiqə qoyulduğu vaxt Türk Milləti yüksələcək.”24*

Atatürk eyni zamanda Türk gəncliyinin prioritet olaraq öz mənliyinə, milli ənənələrinə, xalqın birlik və bütünlüyünə zərər verə biləcək düşmən ünsürləri tanıması və bunlarla mübarizə üsullarını öyrənməsinə də diqqət çəkmişdir:

> *"Yetişəcək uşaqlarımıza və gənclərimizə, görəcəkləri təhsilin sərhədləri nə olursa olsun, ən əvvəl və ən əsaslı olaraq Türkiyənin istiqlalına, öz mənliyinə, milli ənənələrinə düşmən olan ünsürlərlə mübarizə etmək lazımlılığı öyrədilməlidir."25*

> *"Uşaqlarımız və gənclərimiz yetişdirilərkən onlara xüsusilə varlığı ilə, haqları ilə, birlik və bütünlüyü ilə ziddiyyət təşkil edən bütün xarici elementlərlə mübarizə zəruriliyi, milli fikirləri dərindən bilərək hər əleyhdə olan fikir qarşısında şiddətlə və fədakarlıqla müdafiə etmə zəruriliyi təlqin edilməlidir. Yeni nəsillərin ruh gücünə bu xüsusiyyət və qabiliyyətlərin təlqin edilməsi əhəmiyyətlidir. Həyatlarını davamlı və müdhiş bir mübarizə formasında təyin edən millətlərin fəlsəfəsi, müstəqil olmaq və xoşbəxt qalmaq istəyən hər millət üçün bu xüsusiyyətləri çox şiddətli olaraq tələb etməkdədir. (16.7.1921 Maarif Konqresinin açılış çıxışından)"26*

Gənclərin bu şəkildə şüurlandırılması üçün isə, sadəcə gənclərə deyil, əlbəttə cəmiyyətin bir çox seqmentinə əhəmiyyətli vəzifələr düşməkdədir. Gənc nəsil məlumatsızlıq və ya səhv məlumatlandırmalar səbəbi ilə, digər insanlara müqayisədə asan istiqamətləndirilə bilməkdədir. Gənclərin səhv istiqamətləndirilmələrindən qoruna bilmələrində və özlərindən gözlənililən məsuliyyətləri tam olaraq yerinə gətirə bilmələrində alacaqları təməl təhsil təyin edici rol oynamaqdadır. Bu səbəblə, gənclərin vətən və millət sevgisini mənimsəyə biləcəkləri, tarix şüuruna sahib ola biləcəkləri, mədəni mirasımızın dəyərini qavraya biləcəkləri, dövlətə xidmət anlayışlarını inkişaf etdirə biləcəkləri, ən əhəmiyyətlisi zərərli ideologiyaların təlqinlərindən qoruna biləcəkləri bir təhsil imkanına sahib olmaları lazımlıdır. Gənclərin bu şüuru qəbul etmələri təmin edilmədən onlardan gözləmək doğru olmaz. Məhz Atatürkün etdiyi budur. Atatürk gənclərə çox güvəndiyini, onları ölkəmizin gələcəyinin zəmanəti olaraq gördüyünü söyləyərkən, əvvəlcə gənclərin doğru şəkildə şüurlandırılmaları lazım olduğunu vurğulamışdır. Atatürk bu təhsil və şüurlandırılmanın nəticəsində ortaya çıxacaq olan "bilik və mədəniyyət ordusunun" millətin gələcəyini formalaşdıracaq qədər üstün bir gücə qovuşacağını söyləmişdir:

> *"Məmləkətimizi, cəmiyyətimizi həqiqi hədəfə, xoşbəxtliyə çatdırmaq üçün iki orduya ehtiyac var. Biri vətənin həyatını xilas edən əsgər ordusu, digəri millətin gələcəyini yoğuran mədəniyyət ordusu."27*

> *"Bir millət mədəniyyət ordusuna sahib olmadıqca, müharibə meydanlarında nə qədər parlaq zəfərlər əldə edirsə etsin, o zəfərlərin qalıcı nəticələr verməsi ancaq mədəniyyət ordusuna bağlıdır."28*



Atatürk təhsil ilə cahilliyin yox edilməsinin, bir milləti əsarətdən azadlığa qovuşduran əhəmiyyətli güc olduğunu xatırladaraq gənclərimizin yaxşı təhsil almalarının nə dərəcə həyati əhəmiyyət daşıdığına diqqət çəkmişdir:

> *“Təhsildir ki, bir milləti ya azad, müstəqil, şanlı yüksək bir cəmiyyət halında yaşadar ya da bir milləti əsarət və səfalətə tərk edər.”29*

> *“Milli təhsil proqramımızın, Milli təhsil siyasətimizin təməl daşı, cahilliyin yox edilməsidir.”30*

Bir xalqın yüksək mədəniyyət səviyyəsinə çatmasında, yaxşı yetişmiş, məlumatlı, mədəni insan ünsürünün əhəmiyyəti son dərəcə böyükdür. Bu səbəblə möhkəm, üstün keyfiyyətli və milli mədəniyyətimizin əsasları ilə müasir mədəniyyətin irəli texnologiyasını birləşdirən bir təhsil sistemi ilə gənclərimizin yetişdirilməsi əsas şərtdir.

Gənc əhaliyə sahib olmaq Türkiyə Cümhuriyyəti üçün böyük bir qüvvət və gücdür. Ancaq bu gənclərin doğru istiqamətləndirilməsi, xarici və bölücü qüvvələrin, ölkə əleyhinə fəaliyyət göstərən ideologiyaların və qrupların təsiri altında qalmalarına maneə törədilməsi lazımdır. Məhz Atatürkün, mədəniyyət inqilabının üzərində dayanmasının və təhsilə üstünlük verməsinin səbəbi budur.

> *"Hədəfə tək uşaqları yetişdirməklə çata bilmərik! Uşaqlar gələcəyindir. Uşaqlar gələcəyi edəcək adamlardır. Lakin gələcəyi hazırlayacaq bu uşaqları yetişdirəcək analar, atalar, bacı və qardaşlar hamısı indidən az çox aydınlandırılmalıdır ki, yetişdirəcəkləri uşaqları bu millət və məmləkətə xidmət edə biləcək, faydalı ola biləcək şəkildə yetişdirsinlər! Heç olmazsa yetişdirməyin lazımlılığına inansınlar! Məktəblərdən başqa; qəzetlər, kiçik jurnallar kəndlərə qədər nəşr olunub paylanmalıdır. Bizim kəndlimiz nə qəzet nə jurnal və s. oxumaz. Bilənlər bilməyənləri yığıb, oxutmağı, onlara oxumağı izah etməyi bir vəzifə bilməlidir."(1923)31*

Atatürkün təhsilin əhəmiyyətinə diqqət çəkdiyi sözlərindən bir digəri isə bu şəkildədir:

> *"İnsanlar sadəcə maddi deyil, xüsusilə bu maddi gücün ehtiva etdiyi mənəvi gücün təsiri ilə konstruktivdirlər. Millətlər də belədir. Mənəvi qüvvə xüsusilə elm və inancla yüksək bir şəkildə inkişaf edir. Elə isə hökumətin ən səmərəli və ən əhəmiyyətli vəzifəsi təhsil işləridir. Bu yolda müvəffəqiyyətli olmaq üçün elə bir proqram izləmək məcburiyyətindəyik ki, o proqram millətin bugünkü halına, sosial və həyati ehtiyaclarına, ətraf şərtlərinə, dövrün ehtiyaclarına uyğunluq təmin etsin, onlara uyğun olsun. Bunun üçün çox böyük amma xəyali və qarışıq fikirlərdən uzaq durub həqiqətə dərinliklərini görərək baxmaq, toxunmaq lazımdır."32*



## Hörmətli Adnan Oktarın Kaçkar TV müsahibəsi, 15 dekabr 2008-ci il

ADNAN OKTAR: Bizim yaraşıqlı Atatürkümüz, gözəl Atatürkümüzün gözəl xüsusiyyətlərindən biri Türk Birliyini müdafiə etməsidir. İkincisi də İslam Birliyini müdafiə etməsidir. Türk və İslam ölkələrinin birləşməsini istəyər, yəni Türk İslam Birliyini istəyən bir Osmanlı igididir. Bir Türk aslanıdır Atatürk. Materialist ateist sistemə qarşı qəti rəftarını ortaya qoymuşdur. Kommunizmə qarşı qəti rəftarını ortaya qoymuşdur. Türk Milləti üçün kommunizmin çox böyük bir təhlükə olduğunu ifadə etmişdir. Bununla əlaqədar çox yığcam gözəl sözləri var. Masonluğa qarşı igidcə və aslan kimi rəftarını ortaya qoymuş, masonluğu bağlamış, fəaliyyətlərini dayandırmışdır. Məlum bilirsiniz Almalılı təfsirini etdirmişdir, Buxarini tərcümə etdirmişdir. Gecə gündüz Quran məclisləri təşkil etmişdir. Çox təmiz bir vətən övladıdır Atatürk... Onun meydana gətirdiyi bu məmləkətdə hüzur içərisində, təhlükəsizlik içərisində yaşayırıq. Dünyanın ən güclü ordularından birinə sahibik. Allaha çox şükür. Dünyanın ən gözəl torpaq parçasında yaşayırıq. Bunlar hamısı Atatürkün əseridir. Bunun xoşbəxtliyini sevincini yaşayıb Allaha həmd etməyimiz lazımdır. Yəni bir gözəllik varsa ona sadəcə təşəkkür edilər. Və xeyirlə yad edilər. Atatürkü xeyirlə yad etmək çox əhəmiyyətlidir.

## Hörmətli Adnan Oktarın Tasca müsahibəsi, 21 noyabr 2008-ci il

ADNAN OKTAR: İndi Kamalistəm deyənlər 2 cürdür. Bir, Atatürkü insanlara dinsiz kimi göstərməyə çalışan, Türklüyə, Türk İslam Birliyinə qarşı kimi göstərməyə çalışan, materialist kimi göstərməyə çalışan bəzi primitiv ağılda olanlar var. Öz ağıllarına görə Türk Millətini aldadacaqlarını zənn edirlər. Bir də həqiqi Kamalistlər, həqiqi Atatürkçülər var. Bunlar da deyir ki, Atatürk bir Osmanlı övladıdır. İmanlı bir Osmanlı paşasıdır. Aslan kimi cəsurdur. İmanlıdır, Allahdan qorxar, Quran oxunduğunda ağlayan bir insandır. Axşamlar Quran hafizlərini yığıb Quran dinləyən bir insandır, Səhihi Buxari kitabını tərcümə etdirən insandır. Almalılı Həmdi Yazırın, Almalılı təfsirini etdirən insandır. Və dinin əslinin yaşanması üçün insanları təşviq edən insandır. Amma o dövrdə Osmanlının içində dinsizlik, materializm, ateizm çox hakim idi. Atatürkün də ətrafını əhatə etmişdi bu insanlar. Onlara baxmayaraq var gücü ilə Türk İslam Birliyini müdafiə etmişdir. Masonluğa qarşı mübarizə aparmışdır, kommunizmə qarşı mübarizə aparmışdır. “Bəylər” deyir, “Türk aləminin ən böyük düşməni kommunistlikdir, hər görüldüyü yerdə əzilməlidir” deyir. Atatürkün sözü budur və böyük bir cəsarətdir bu... Masonluğu bir gecədə bağlatdırmışdır. Masonluğa qarşı rəftarını qəti ortaya qoymuş və bir gecədə masonluğu bağlatdırmışdır. Bu böyük igidlik və cəsarət tələb edən işlərdir. Məhz biz bu düşüncənin Atatürkçüsüyük. Peyğəmbər (səv)-ə heyran olan bir Atatürk var. Peyğəmbər (səv)-in sözlərinin tətbiq olunmasını istəyən bir Atatürk var. Qurana heyran bir Atatürk var. Biz bunu müdafiə edirik. Onlar xəyali bir Atatürk düşüncəsindədirlər. Xəyali yəni olmayan bir şey. Başqa sözlə həqiqi Atatürkçülük əsasdır. Mən də həqiqi Atatürkçülüyü təmsil edirəm.

## Atatürkün gəncliyə xitabı

“Ey Türk Gəncliyi!



Birinci vəzifən, Türk gələcəyini, Türk Cümhuriyyətini, əbədi, mühafizə və müdafiə etməkdir. Mövcudiyyətinin və gələcəyinin yeganə təməli budur. Bu təməl, sənin ən qiymətli xəzinəndir. Gələcəkdə belə, səni, bu xəzinədən məhrum etmək istəyəcək, daxili və xarici bədbəxtlərin olacaq. Bir gün, istiqbalı və Cümhuriyyəti müdafiə etmək məcburiyyətinə düşsən, vəzifəyə atılmaq üçün, içində olacağın vəziyyətin imkan və şəraitini düşünməyəcəksən! Bu imkan və şərait, çox uyğun olmayan bir mahiyyətdə təzahür edə bilər. İstiqlalına və Cümhuriyyətinə qəsd edəcək düşmənlər, bütün dünyada bənzəri görülməmiş qalibiyyətin təmsilcisi ola bilərlər. Məcburi olaraq və hiylə ilə əziz vətənin bütün qalaları zəbt edilmiş, bütün limanlarına girilmiş, bütün orduları dağıdılmış və məmləkətin hər tərəfi qeyri-qanuni olaraq işğal edilmiş ola bilər. Bütün bu şəraitdən daha acınacaqlı və daha dəhşətlisi olmaq üzrə, məmləkətin daxilində

iqtidara sahib olanlar qəflət və dəlalət və hətta xəyanət içində ola bilərlər. Hətta bu iqtidar sahibləri şəxsi mənfəətlərini, işğalçı siyasi əməlləri ilə bir araya gətirə bilərlər. Millət çarəsizlik içində və əldən düşmüş ola bilər.

Ey Türk gələcəyinin övladı! Məhz, bu əhval və şərait içində belə, vəzifən, Türk istiqlalını və Cümhuriyyətini xilas etməkdir! Möhtac olduğun qüdrət, damarlarındakı nəcib qanda mövcuddur."

Mustafa Kamal ATATÜRK

## Gəncliyin Atamıza cavabı

"Ey Böyük Ata,



Varlığımızın ən müqəddəs təməli olan, Türk İstiqlalının və Cümhuriyyətinin sonsuz gözətçisiyik. Bu qərar, dəyişməz iradəmizin ilk və son izahatıdır. Gələcəkdə, heç bir qüvvə bizi yolumuzdan çevirməyəcək. Bizlər, bütün sürətimizi səndən, milli tariximizdən və ruhumuzdakı sönməz inanc atəşindən alırıq. Sənin qurduğun güclü təməllər üzərində atdığımız hər addım möhkəm, etdiyimiz hər cəhd şüurludur. Ən qiymətli əmanətimiz olan, Türk İstiqlalı və Cümhuriyyəti, varlığımızın əsası olaraq, əyilməz başların, bükülməz qolların, məğlub olmaz Türk övladlarının əlində sonsuza qədər yaşayacaq və nəsillərdən nəsillərə təhvil veriləcək. İstiqlal və Cümhuriyyətimizə qəsd edəcək düşmənlər, ən müasir silahlarla təchiz edilmiş olaraq, ən qüvvətli ordularla üzərimizə hücum etsələr belə, milli birliyimizi və məğlub edilməz Türk gücünün zərrəsini belə sarsa bilməyəcəklər. Çünki, bu əziz vətənin torpaqları üzərində yetişən əzmli və inanclı Türk gəncliyi, tökülən təmiz qanların və Cümhuriyyət inqilablarımızın aydın məhsullarıdır. Vətənin və millətin dincliyi üçün hər çətinliyə iman dolu sinəmizi gərmək, həqiqi məqsədimiz olacaq.

Ey Türkün böyük Atası!

İstiqlal və Cümhuriyyətimizi qorumaq lazım olduğu zaman, içində olacağımız vəziyyətlər və şərtlər nə olursa olsun, qüdrət və cəsarətimizi damarlarımızdakı nəcib qandan alaraq, bütün maneələri aşıb hər çətinliyi məğlub etmək əzmindəyik.

Türk gəncliyi olaraq azadlığın, müstəqilliyin, suverenliyin, Cümhuriyyət və inqilabların yıxılmaz gözətçiləriyik. Hər zaman, hər yerdə və hər vəziyyətdə Atatürk qanunlarından

ayrılmayacağımıza, müasir sivilizasiyaya keçmək üçün bütün çətinliklərə qalib gələcəyimizə, namus və şərəf sözü verir, özümüzü böyük Türk xalqına həsr edirik.”

Türk gəncliyi

# Atatürkün idealındakı gənclik

Atatürkün ən böyük hədəfi, çox böyük əməklərlə qurulan Uca Türkiyə Cümhuriyyətinin güclü və inkişaf etmiş demokratik ölkələr birliyinə girməsi və bu inteqrasiya prosesinin çox sürətli və müvəffəqiyyətli olması idi. Türk Millətinin bu müddəti sürətləndirməsinin birinci şərti isə Qərbin mədəniyyətini alarkən, Milli birlik və bərabərliyini hər şeyin üzərində tutması, milliyyətçi xarakterini əsas şərt olaraq təyin etməsi, İslamın özünü müdafiə edən müasir quruluşu qısa müddətdə yaratması idi.

Məhz bu səbəblə Atatürk, Cümhuriyyəti əmanət etdiyi Türk gəncinin, milli birlik və bərabərliyini hər şeyin üstündə tutan, vətənpərvər, cəsur, ölkəsi üçün canını sevə-sevə verən, İslamı mənimsəmiş, gözəl əxlaqi xüsusiyyətləri həyatının hər mərhələsinə yerləşdirmiş olmasını istəyir, bunun üçün qarşısına çıxacaq hər maneəni şəxsən ortadan qaldırırdı. Aşağıda sıralanan maddələr, Atatürkün hədəflədiyi milliyyətçi, ölkəsinin problemlərini çox yaxşı bilən və bunlara həllər yarada bilən, demokrat, özünü yaxşıya və doğruya həsr etmiş, milləti və dövləti üçün yaşayan bir gəncliyin müjdəsini verməkdədir.

## Həqiqi Türk milliyyətçisi olmalıdır



Türk gənci öz mənliyini itirmədən, öz şəxsiyyətini, mədəniyyətini unutmadan yeniliklərə adaptasiya ola bilməli, onları öz milli mədəniyyəti içində həzm edə bilməlidir. Əks təqdirdə həm o insanı, həm də milləti içdən-içə yox edə bilər. Atamızın Türkiyə Cümhuriyyətini qorumaqla məsul etdiyi Türk gənci, müstəqil və azad yaşamaq mövzusunda qərarlı, hər millətin haqlarına hörmət edən, öz haqlarını qoruma mövzusunda əzmli, humanist Türk milliyyətçisi olmalıdır. Bunun üçün də Atatürkün milliyyətçilik tərifini şüar olaraq təyin etməlidir.

Türk milliyyətçiliyi, irəliləmə və inkişaf yolunda və beynəlxalq təmas və əlaqələrdə bütün müasir millətlərlə eyni xətdə və onlarla uyğunlaşmaya getməklə birlikdə, Türk cəmiyyətinin xüsusi xarakterlərini və başlı-başına müstəqil şəxsiyyətini gizli tutmaqdır.33

Türk Milləti milli duyğunu, insani duyğu ilə yan-yana düşünməkdən zövq alar. Vicdanında milli duyğunun yanında insani duyğunun şərəfli yerini daim mühafizə etməklə fəxr edər. Çünki Türk Milləti bilər ki, bu gün sivilizasiyanın uca yolunda

müstəqil və lakin özləri ilə paralel olaraq getdiyi bütün mədəni millətlərlə qarşılıqlı insani və mədəni əlaqədə olmaq əlbəttə inkişafımızın davamı üçün lazımlıdır və yenə məlumdur ki; Türk Milləti, hər mədəni millət kimi keçmişin bütün dövrlərində kəşfləri ilə, ixtiraları ilə mədəni dünyaya xidmət etmiş insanların, millətlərin dəyərini təqdir və xatirələrini hörmət ilə mühafizə edər. Türk Milləti, insaniyyət aləminin səmimi ailəsidir.34

Biz birbaşa millətçiyik; Cümhuriyyətimizin təməli Türk birliyidir. Bu birliyin fərdləri nə qədər Türk mədəniyyəti ilə dolu olsa o birliyə istinad edən Cümhuriyyət də qüvvətli olar.35

## Milli mədəniyyətə əhəmiyyət verməlidir

...Müvəffəqiyyət əldə etmək və müvəffəqiyyətləri qüvvətlə, təhlükəsizliklə icra edə bilmək üçün güclü xarakterə sahib olmaq lazımdır. Bizim güclü xarakterimizi həmişə yüksəltmək, qorumaq lazımdır. Buradan millətçilik gəlir... Türkiyə xalqı deyildiyində, bildiyiniz kimi, qədərlərini birləşdirmiş olan hiss və din baxımından qəlbən bir-birlərinə bağlanmış insanlardan söhbət gedir. Bunlar arasında irq cəhətdən fərqli olanlar var. Amma qarşı irqdən olanlardan birinin digəri üzərində onun milliyyətini yox edəcək bir iddiada olmasına ehtiyac yoxdur. Hər biri üçün ayrı-ayrı olduğu kimi Türklər üçün də daim qapalı qalmaq, milli xarakteri yüksəltmək, bütün cəhdlərində bu möhkəmliyi göstərmək lazımdır. Bu nöqtədə tənbəllik böyük fəlakətlərin səbəbi olar. Necə ki, indiyə qədər də olmuşdur. Milliyyət hissi ictimai birliyə güc verən, həyatda qalma qabiliyyətini genişlədən başdan-ayağa bir xüsusiyyətdir. Bu mövzuda cahil kəslərdən ibarət olan ictimai birlik, irqi bölünməyə məhkumdur. Belə bir cəmiyyətin içində onsuz da gərəyi qədər yaxşılıq və güc ola bilməz. Belə bir cəmiyyət, belə bir milli dövlət qura bilməz. (2 fevral 1923-ci il. İzmirdə xalqa etdiyi söhbətdən36



“Sivilizasiya yolunda müvəffəqiyyət, yenilikləri qavrayıb tətbiq etməyə, yeniləşməyə bağlıdır.” Mustafa Kamal Atatürk

Uşaqlarımız və gənclərimiz yetişdirilərkən onlara xüsusilə varlığı ilə, haqları ilə, birlik və bütünlüyü ilə ziddiyyət təşkil edən bütün xarici qüvvələrlə mübarizənin zəruriliyi, milli fikirləri dərinliyi ilə bilərək hər qarşı fikir qarşısında şiddətlə və fədakarlıqla müdafiə etmə zəruriliyi təlqin edilməlidir. Yeni nəsillərin ruh gücünə bu xüsusiyyət və qabiliyyətlərin aşılanması əhəmiyyətlidir. Həyatı davamlı və müdhiş mübarizə formasında ortaya çıxan millətlərin fəlsəfəsi, müstəqil olmaq və xoşbəxt qalmaq istəyən hər millət üçün bu xüsusiyyətləri çox şiddətli olaraq tələb etməkdədir. (16.7.1921. Maarif Konqresinin açılışındakı çıxışından)37

## Millətə güvən verməlidir

Bizim xalqımız çox təmiz ürəkli, çox nəcib ruhlu, inkişafda çox qabiliyyətli bir xalqdır. Bu xalq əgər bir dəfə qarşısındakıların səmimiyyətlə özlərinə xidmət etdiyinə inansa hər

cür hərəkəti dərhal qəbul etməyə hazırdır. Bunun üçün gənclərin hər şeydən əvvəl millətə güvən vermələri lazımdır.(1923)38

Millət sevgisi qədər böyük sevgi yoxdur. Qurtuluş Müharibəsində mənim də millətimə etdiyim bəzi xidmətlər olmuşdur deyə zənn edərəm. Lakin, bunlardan, heç birini özümə aid etmədim. Edilənin hamısı millətin əsəridir dedim. Araşdırılsa doğrusu da budur. Keçmişdə saysız mədəniyyət qurmuş bir irqin və millətin uşaqları olduğumuzu isbat etmək üçün, etməmiz lazım gələn şeylərin hamısını etdiyimizi irəli sürə bilmərik. Bugünə və sabaha buraxılmış hələ bir çox böyük işlərimiz var. Elmi araşdırmalar da bunların arasındadır. Mənim yoldaşlarıma tövsiyəm budur: Şəxsiniz üçün deyil mənsub olduğumuz millət üçün əlbirliyi ilə çalışaq. İşlərin ən böyüyü budur.39

## Milli tərbiyəyə sahib olmalıdır



Atatürk, Ankara Qızlar Liseyinin bitiş imtahanından sonra tələbə və müəllimlərlə birlikdə.

Əfəndilər, bunu izah etmək istəyirəm, ilk ilham ana-ata qucağından sonra məktəbdəki müəllimin dilindən, vicdanından, tərbiyəsindən alınar. Bu ilhamın inkişaf qaynağı olması, insana millət və ölkəyə xidmət edə bilmə gücünü və qabiliyyətini verə bilməsi üçün millətə və ölkəyə böyük, dərin maraq yaradan fikirlər, hisslərlə hər an gücləndirilməsi lazımdır. Bu fikirlərin və duyğuların qaynağı birbaşa ölkə və millətdir. Millətin ortaq istəyinə və meylinə toxunmaq və onun ehtiyaclarına özünü həsr etmək, belə davranmaq və doğru yolda gedə bilmək sözünü etdiyim tərbiyənin təməl qanunudur. Bir millətin fərdlərində suverenlik olması, onlar tərəfindən uyulması lazım olan şey millətin ortaq istəyi və fikirləridir. Bir insan millətinə və ölkəsinə faydalı bir iş görərkən heç ağılından çıxarmaması lazım olan şey millətin həqiqi meylidir.40

Bir milləti azad, müstəqil, görkəmli, uca bir cəmiyyət halında yaşadan tərbiyədir və onu məhbus edən, səfalətə itələyən də bunun yoxluğudur.41

Milli tərbiyə ilə böyümək və təriflənmək istəyən gənc nəsilləri aşındırıcı, narkotik və xəyali zibillərlə doldurmaqdan çəkinmək lazımdır.42

## Atatürkü yaxşı anlamış olmalıdır

Bir gün xalqı, sizin kimi məni anlamış gəncliyə buraxacağımdan çox məmnun və xoşbəxtəm.43

Məni görmək demək, mütləq üzümü görmək demək deyil. Mənim fikirlərimi, mənim hisslərimi anlayırsınızsa və hiss edirsinizsə, bu kifayətdir.44

## Atatürkün yolunda irəliləməli və onun qoyduğu vəzifəni tamamlamalıdır

Mənim Türk Millətinə, Türk Cümhuriyyətinə və Türklüyün gələcəyinə aid vəzifələrim bitməmişdir. Sizlər, onları tamamlayacaqsınız. Siz də sizdən sonrakılara mənim sözümü təkrar edin.45

Bu vətən, övladlarımız və nəvələrimiz üçün cənnət kimi edilməyə layiq və uyğun bir vətəndir. Bu ölkəni belə mütərəqqi hala gətirəcək olan işlər, iqtisadiyyat və iqtisadi fəaliyyətdir. Elə isə elə bir iqtisadiyyat dövrü başlamalıdır ki, artıq millətimiz insan kimi yaşamasını bilsin, insan kimi yaşamağın nəyə bağlı olduğunu öyrənsin və ona yönəlsin. Hamımızın istədiyi bu millətin insanlarının əllərindəki nümunələrlə sabahın, ticarətin, sənətin, işin, həyatın nümayəndələri olmalarıdır. Artıq bu ölkə, bu millət belə bir dövrün içindədir və belə bir dövrü ucaldacaq. Belə bir dövrün tarixini yazacaq. Belə bir tarixdə ən böyük mövqe, ən böyük haqq çalışqanlara aid olacaq. Sizlər ölkənin ehtiyaclarını, millətin qabiliyyətlərini, bunlara qarşılıq dünyadakı ən güclü iqtisadiyyat təşkilatını göz qarşısında saxlayaraq alınması lazım olan tədbirləri və tətbiq olunması şərt olan yenilikləri çox açıq bir şəkildə ifadə etməlisiniz. Belə ki, o tədbirlər, o yeniliklər tətbiq olunduqca ölkəmiz bolluğa və aydınlığa qovuşacaq.46

## Əcdadını nümunə götürməlidir

Türk övladı əcdadını tanıdıqca daha böyük işlər etmək üçün özündə güc tapacaq.47

Böyük dövlətlər quran əcdadımız, böyük və mənalı mədəniyyətlərə də sahib olmuşdur. Bunu axtarmaq, tədqiq etmək, Türklüyə və dünyaya bildirmək bizlər üçün bir borcdur.48

Müstəqilliyini güzəştə getməməlidir

Azadlıq hər tərəqqinin və qurtuluşun anasıdır.49

Nə qədər zəngin və rifaha qovuşdurulmuş olursa olsun, müstəqillikdən məhrum bir millət, mədəni insanlıq qarşısında xidmətçi olmaq mövqeyindən yüksək bir rəftara layiq ola bilməz.50

Tam müstəqillik, bizim bu gün üzərimizə götürdüyümüz vəzifənin təməl ruhudur.51





Atatürk Sivas Qızlar Müəllim Məktəbi şagirdləri ilə.

Əsas, Türk Millətinin ləyaqətli və şərəfli bir millət olaraq yaşamasıdır. Bu əsas ancaq tam müstəqilliyə sahib olmaqla təmin oluna bilər.52

Halbuki Türkün şərəfi, mənliyi və qabiliyyəti çox yüksək və böyükdür. Belə bir millət əsir yaşamaqdansa yox olsun daha yaxşıdır. Bundan ötrü, YA İSTİQLAL, YA ÖLÜM!53

Türkiyə Xalqı, əsrlərdən bəri azad və müstəqil yaşamış və müstəqilliyi həyat gərəyi saymış bir qövmün qəhrəman övladlarıdır. Bu millət, müstəqillikdən uzaq yaşamamışdır. Yaşaya bilməz və yaşamayacaq.(1922)54



“Hər şeydən əvvəl mənəviyyat, ürək və vicdan gücü yüksək tutulmalıdır.” Mustafa Kamal Atatürk



Gənclərin şübhəsiz bir peşə sahibi olması lazım olduğuna inanan Atatürk, Adana Qızlar İnstitutunu gəzərkən.

İstəyimiz xaricdə müstəqilliyi və daxildə qeyd-şərtsiz milli suverenliyi qorumaqdan ibarətdir. (1923)55

Müstəqillik və azadlığını hər nə bahasına və hər nə qarşılığında olursa olsun zədələməyə və xətər yetirməyə əsla icazə verməmək; müstəqillik və azadlığını tam mənası ilə qoruya bilmək və bunun üçün lazım olsa, son fərdinin, son damla qanını axıdaraq, insanlıq tarixini şanlı nümunə ilə bəzəmək; məhz müstəqillik və azadlığın həqiqi mahiyyətini, geniş mənasını, yüksək qiymətini, vicdanında qavramış millətlər üçün təməl və ölməz prinsipdir... Ancaq bu prinsip uğrunda hər cür fədakarlığı, hər an etməyə hazır millətlərdir ki, davamlı olaraq insanlığın hörmət və ehtiramına layiq bir birlik olaraq düşünülə bilərlər. (1928)56

## Demokratiyaya inanmalıdır



Qapıda dayanan növbətçi belə məndən qorxmaz. İstəsəniz özündən soruşun. Qorxu üzərinə suverenlik qurulamaz. Toplara əsaslanan suverenlik ayaqda qala bilməz. Belə bir suverenlik, hətta diktatorluq ancaq qiyam olduğunda, keçici müddət üçün lazımdır... ölkəmizə baxın, sükunət içindədir. Həmişə güvən və hüzurdan yanayıq. Öz torpaqlarımız xaricində bir kvadrat metr torpaqda gözümüz yoxdur. Çünki torpaqlarımız genişdir və üzərində yaşayanlar üçün dar deyil. Bütün dövlətlərlə təhlükəsizlik müqavilələri bağladıq. Ancaq yeni hücumlara məruz qalmamaq üçün ordunu saxlayırıq. (24.4.1930, Vossiche Zeitung müxbirinə verdiyi bəyanat).57

Əfəndilər, millət bizi bura göndərdi. Amma biz bu rəhbərliyi və suverenliyini miras kimi ömrümüz boyu istifadə etmək üçün toplanmış deyilik. Və sizi toplamaq və dağıtmaq haqqına heç kim sahib deyil. Millət bilməlidir ki, bir gündə vəkillərini toplayar və göndərər. Kimsənin buranı məhdudlaşdırmağa haqqı və səlahiyyəti yoxdur və olmamalıdır.58

Millətə belə deyildi: “Suverenliyinizi və iradənizi qeydsiz-şərtsiz əlinizdə tutmanız lazımdır və bunun üçün sizi təmsil edəcək insanları bir yerə gətirərək bir məclis yığın və bu məclis qeydsiz-şərtsiz olaraq ölkə və millət işlərinə, vəzifələrinə əl qoyacaq.59

## Sabit, qərarlı və əzmli olmalıdır

Türk Millətinin istedadı və qəti qərarı mədəniyyət yolunda, dayanmadan, qorxmadan irəliləməkdir.60

Zəfər "qələbə mənimdir" deyə bilənlərə aiddir, uğur "uğur qazanacağam" ilə başlayıb "bacardım" deyənlərə aiddir.61

Millətimiz hər güclük və çətinlik qarşısında, dayanmadan irəliləməkdə və yüksəlməkdədir. Böyük Türk Millətinin bu yoldakı sürətini, hər vasitə ilə artırmağa çalışmaq, bizim hamımızın ən

müqəddəs vəzifəmizdir.62

Yoldaşlar, xalqın sevgi və etibarından əmin olaraq, üzərində olduğumuz mədəniyyət, tərəqqi və irəliləmə yolunda əzmlə, tərəddüdsüz gedək.63

## Məsuliyyət sahibi olmalı, xidmətə talib olmalıdır



Atatürk gəncliyə böyük dəyər verən lider idi və gənclərlə bir yerdə olmağa diqqət göstərərdi.

Məsuliyyət yükü hər şeydən, ölümdən də ağırdır.64

Türk Milləti, hər nə bahasına olursa olsun xidməti qanun əldə etmişdir və bu uğurda heç bir fədakarlıqdan qaçmaz.65

...İnsanlar həyatda üç dövr keçirər. Dövlət həyatı da bu dövrləri ehtiva edir. Keçmiş Osmanlı Dövləti bu həyat dövrlərinin üçünü yaşadıqdan sonra yox oldu. Onun yerinə dünya tarixinə yeni bir Türkiyə Dövləti keçdi. Yeni Türkiyə Dövləti bütün Türklük xüsusiyyətlərini, yəni onun dinc, qərarlı, ərdəmli olma xüsusiyyətlərini özündə toplamışdır. Gənclər biz sizə keçmişdən, keçmişin boş inanclarından, keçmiş qalıqlarından təmizlənilmiş yeni diriliş gətirdik. Hadisələr və hadisələrin zəruri nəticəsi sayılan bu diriliş sizin qiymətli qatqılarınız və aydın dəstəyinizlə ortaya çıxdı. Bu yeni varlığı böyüdüb ucaltmaq sizə aiddir. Bu vəzifədə müvəffəqiyyətli olacağınıza gördüyüm dəlillərə baxaraq qüvvətlə inananlardanam. Sevimli gənclər, həyat mübarizədən ibarətdir. Bu səbəblə həyatda sadəcə iki şey var: Məğlub etmək, məğlub olmaq. Sizə, Türk gəncliyinə verdiyimiz və buraxdığımız vicdani hədiyyə sadəcə və həmişə məğlub etməkdir və inanıram ki, həmişə məğlub edəcəksiniz. Millətin möhtərəmliyi və irəliləmə şərtləri baxımından ediləcək işlərdə və atılacaq addımlarda heç axsamayın. Milləti o yüksəliyə çatdırmamızı önləyəcək maneələrə birlikdə sinə gərəcəyik. Bunun üçün beyinlərinizə, mədəniyyətinizə, məlumatınıza, lazım olsa biləklərinizə, qollarınıza, ayaqlarınıza müraciət edəcək amma mütləq o hədəfə çatacağıq. İstər burada istər gəzdiyim hər yerdə gənc yoldaşlarınız həmişə sizlər kimi duyğulu, qərarlı və ürəklidir. Bu səbəblə indidən gələcəyin parlaq üfüqlərini görmənin xoşbəxtliyi içindəyəm. Bu millət sizin kimi övladları ilə layiq olduğu ucalığa çatacaq. Məni çox məmnun etdiniz. Birlikdə olmaqdan, xüsusilə dayanıqlılıq ifadə edən sözlərdən ötəri xoşbəxtəm. (18.3.1923. Tarsusda gənclərlə söhbətindən)66

## Cəsur olmalıdır

ənclər üçün vətənpərvərlik işində ölmək mümkün ola bilər. Ancaq heç vaxt qorxma!67



G Böyük qərarlar vermək kifayət deyil. Bu qərarları cəsarət və qətiyyətlə tətbiq etmək lazımdır.68

Sizə Bombasırtı hadisəsini izah etmədən keçə bilməyəcəyəm. Qarşılıqlı sipərlərimiz arasında məsafəmiz səkkiz metr, yəni ölüm mütləqdir, mütləqdir... Birinci sipərdəkilər heç biri xilas ola bilməyəcək şəkildə tamamilə düşür, ikincidəkilər onların yerinə gedir. Lakin nə qədər qibtəyə layiq bir etidal və təvəkküllə, bilirsinizmi? Öləni görür, üç dəqiqəyə qədər öləcəyini bilir, ən kiçik bir laqeydlik belə göstərmir; sarsılmaq yoxdur. Oxuma bilənlər əllərində Qurani-Kərim, cənnətə girməyə hazırlanırlar. Bilməyənlər, Kəlmeyi-Şəhadət gətirərək gedirlər. Bu, Türk əsgərindəki ruh gücünü göstərən, təəccüblənəcək və tərifləncək bir misaldır. Əmin olmalısınız ki, Çanaqqala Müharibəsində qalibiyyət bu yüksək ruhdur.69

Gənclər, cəsarətimizi gücləndirən və davam etdirən sizsiniz. Siz almaqda olduğunuz tərbiyə və mədəni insanlıq fəzilətinin, vətən sevgisinin, fikir azadlığının ən qiymətli simvolu olacaqsınız. Ey yüksələn yeni nəsillər, gələcək sizindir. Cümhuriyyəti biz qurduq, onu ucaldacaq və davam etdirəcək olan sizsiniz.70

## Çətinliklərdən qorxmamalıdır

Təşəbbüslərin müvəffəqiyyətli olması üçün çətin şərtlərə sinə gərmək lazımlıdır.71

Mən həyatımın heç bir anında pessimizm nədir, tanımadım.72

Tətbiq edən; icra edən, qərar verəndən daim daha güclüdür.73

Lazımlılığına qane olduğumuz bir işi dərhal etməliyik.74

Çətinlikləri həll edən kimsə olmaq istəyənlərin ilk edəcəkləri, hadisələrin iç üzünü bilib ona uymaq olmalıdır.75

## Çalışqan və intizamlı olmalıdır

ikir hazırlıqlarını əsgərləri səfərbərliyə toplamaq üçün təbil və zurnalar ilə təmin etmək olmaz. Fikirlərin hazırlanmasında təvazökarlıqla işləmək, özünü silmək, digərinə səmimi bir inam yaratmaq lazımdır.76

Sizlər, yeni Türkiyənin gənc övladları! Yorulsanız belə məni izləyəcəksiniz... Dinləncəlməmək üzrə getməyə qərar verənlər, əsla yorulmazlar. Türk Gəncliyi məqsədə, bizim yüksək idealımıza dayanmadan, yorulmadan gedəcək.77



F Siz gənc yoldaşlar, yorulmadan məni izləyəcəyinizi söyləyirsiniz. Lakin yoldaşlar, yorulmadan nə deməkdir? Yorulmamaq olarmı? Əlbəttə yorulacaqsınız, sizdən istədiyim şey yorulmamaq deyil, yorulduğunuz zaman belə dayanmadan getmək, yorulduğunuz dəqiqədə də dinləncəlmədən məni izləməkdir. Yorğunluq hər insan, hər canlı üçün təbii vəziyyətdir. Lakin insanda yorğunluğu məğlub edə biləcək mənəvi bir güc var ki, məhz bu güc yorulanları dincəltmədən yürüdər.78

İş, insanların fiziki güclərini inkişaf etdirər və həyat üçün lazım olan şeyləri təmin edər. İşləmədən, fikri inkişaf və əxlaqi irəliləmə də mümkün deyil. Tənbəllik bütün pisliklərin anasıdır.79

Özlərinə faydalı olduğunuz, onlara müsbət yolda xidmət etdiyiniz müddətcə millətin sevgisini qazana bilərsiniz. Vədlərinizi yerinə yetirməz, millətin rifahına xidmət etməsəniz, bu gün sizi alqışlayan bu birlik sabah sizi ayıblayar.80

## Dürüst olmalıdır

H əqiqəti danışmaqdan qorxmayın.81

Məsələləri hadisələrə görə deyil, əslində olduğu kimi ələ almaq lazımdır.82

Bir şeyi vicdani olaraq yaxşı etdiyimizə, sözlərimizin yaxşı olduğuna inanırıqsa, onu olduğu kimi açıq, tərəddüd və qeyri-sabitlikdən təmizlənmiş olaraq izah etməyi məqsəd qoymalıyıq.83

Yoldaşlar məndən ayrı-seçkilik gözləməməlidir. Hamınız mənim gözümdə qiymətli, əhəmiyyətli bacı və qardaşlarımsınız. Amma, hamınıza göstərdiyim hədəf uca, müqəddəs bir hədəfdir... Hansınız daha gözəl üsulla, müvəffəqiyyətlə oraya çatsanız onu, əllərimi çatladana qədər çırparaq alqışlayacaq, təqdir edəcəyəm. Məndən ayrı-seçkilik və tərəfkeşlik gözləməyin yoldaşlar. Adam olanlar, insan olanlar, yüksək idealı olanlar dəyərlərini göstərsinlər. Mənim sizə qardaşca söyləyəcəyim şey budur. Bütün yoldaşlarımıza söyləmək məcburiyyətindəyəm ki, mən o milli hədəfə bütün millət kütləsini aparmaq üçün, təbii olaraq əxlaqi ünsürəm, bunu istəyirəm. (1922, Prof. Dr. Afet İnanın nümayiş etdiyi sənəd).84

## Ədalətli olmalıdır

Ə fəndilər! Hökumət məmləkətdə qanunu hakim etməklə və ədaləti bərpa etməklə məsuldur. Bu baxımdan ədalət işi çox əhəmiyyətlidir. Ədliyyə siyasətimizdə izləniləcək yol, ədaləti, xalqı yormadan, sürətlə, uyğun və təhlükəsiz bir şəkildə tətbiq etməlidir.

Cəmiyyətimizin dünya ilə təması təbii və zəruridir; bu səbəblə də ədalət səviyyəmizi bütün mədəni cəmiyyətlərin ədaləti səviyyəsinə çıxarmaq məcburiyyətindəyik... Müasir inkişaf etmiş millətlərin mədəni ehtiyaclarını genişlədir, artırır və bu ehtiyaclara uyğun mədəni haqların var olmasını tələb edir. Hər dövlətin, cəmiyyətinin sivilizasiya səviyyəsinə uyğun bir hüquq qanunvericiliyi var. Bütün mədəni dövlətlərin mədəni qanunları bir-birlərinə çox yaxındır. Bizim millətimiz və hökumətimiz ədalət düşüncəsi zehniyyəti baxımından heç bir mədəni cəmiyyətdən geri deyil. Hətta bu nöqtədə daha irəlidə olduğumuza tarix şahidlik edə bilər. Buna görə bizim hüquq qanunvericiliyimizin də bütün mədəni dövlətlərin qanuni tənzimləməsindən əskik olması qəbul edilə bilməz. Hədəflədiyimiz tam müstəqillik anlayışı içində ədalət müstəqilliyimizin də yer alması təbiidir.85

## Vicdan və fikir azadlığından yana olmalıdır

Hər şəxs istədiyini düşünmək, istədiyinə inanmaq, özünə məxsus siyasi bir fikrə malik olmaq, seçdiyi bir dinin zərurətlərini etmək və ya etməmək haqq və azadlığına malikdir. Kimsənin fikrinə və vicdanına hakim oluna bilməz. Vicdan azadlığı, mütləq və müdaxilə edilə bilməz, fərdin təbii haqlarının ən mühümlərindən tanınmalıdır.86

Cümhuriyyət fikir sərbəstliyi tərəfdarıdır. Səmimi və qanuni olmaq şərti ilə hər fikrə hörmət duyarıq.87

Gənclər, siz almaqda olduğunuz tərbiyə və mədəniyyət ilə, insanlıq üstünlüyünün, vətən sevgisinin, fikir azadlığının ən qiymətli simvolu olacaqsınız.88

## Ağıllı hərəkət etməlidir

Ağıl və məntiqin təhlil edə bilməyəcəyi məsələ yoxdur.89

Fikirlər, zorakılıq və şiddətlə, top və tüfənglə əsla öldürülə bilməz.90

Fikirlər mənasız, məntiqsiz, boş sözlərlə dolu olsa, o fikirlər xəstəlikdir. Eyni şəkildə sosial həyat ağıl və məntiqdən uzaq, faydasız, zərərli və bəzi ənənələrlə dolu olsa iflicə uğrayar.91

Bizim ağıl, məntiq, zəka ilə hərəkət etmək ən diqqətə çarpan xüsusiyyətimizdir. Bütün həyatımızı dolduran hadisələr bu həqiqətin dəlilidirlər.92

Bu dünyada hər şey insan ağlından gəlir. Bir insan ağlının ifadə etməyəcəyi heç bir şeyi təsəvvür edə bilmirəm.93

## Uzaqgörən və tədbirli olmalıdır

Fəlakət başa gəlmədən əvvəl önləyici və qoruyucu tədbirləri düşünmək lazımdır. Gəldikdən sonra deyinmənin faydası yoxdur.94

Gənc fikirli demək, doğrunu görən və anlayan həqiqi fikirli deməkdir.95

## Proqressiv olmalı və irəliləmədə sərhəd tanımamalıdır



Yüksək Türk! Sənin üçün yüksəkliyin hüdudu yoxdur. Bax parol budur.96

Əsla şübhəm yoxdur ki, Türklüyün unudulmuş böyük mədəni xüsusiyyəti və böyük mədəni qabiliyyəti bundan sonrakı inkişafı ilə gələcəyin yüksək mədəniyyət üfüqündə yeni bir günəş kimi doğulacaq.97

Türk Millətinin istedadı və qəti qərarı mədəniyyət yolunda, dayanmadan, qorxmadan irəliləməkdir.98

Millətimiz hər ağırlıq və çətinlik qarşısında, dayanmadan irəliləməkdə və yüksəlməkdədir. Böyük Türk Millətinin bu yoldakı sürətini, hər vasitə ilə artırmağa çalışmaq, bizim hamımızın ən müqəddəs vəzifəmizdir.99

Bir başqa dövrdən qalma adətlərinizdə, vərdişlərinizdə müqavimət göstərsəniz, cüzamlılar, pariyalılar kimi tək qalarsınız. Mənliyinizə bağlı qalın amma, inkişaf etmiş xalqlar üçün lazımlı olan şeyləri Qərbdən götürün. Yoxsa, elm və yeni düşüncələr sizi bir tikədə yeyib bitirə bilər.100

## Müasir mədəniyyət səviyyəsinə çatmaq üçün çalışmaq lazımdır

Türk Millətinin istedadı və qətiyyəti mədəniyyət yolunda, dayanmadan, qorxmadan irəliləməkdir.101

Mədəniyyət elə qüvvətli bir işıqdır ki, ona biganə olanları yandırar, məhv edər.102

Mədəni olmayan insanlar, mədəni olanların ayaqları altında qalmağa məhkumdurlar.103

Biz sivilizasiyadan, elmdən və fəndən güc alır və ona əsasən gedirik.104



Biz dünya mədəniyyəti ailəsi içində oluruq. Mədəniyyətin bütün zərurətlərini tətbiq edəcəyik.105

Mədəniyyətin əmr və tələb etdiyini etmək insan olmaq üçün kifayətdir.106

Əfəndilər, millətimizin hədəfi, millətimizin idealı bütün dünyada tam mənası ilə mədəni bir cəmiyyət olmaqdır. Bilərsiniz ki, dünyada hər insan cəmiyyətinin varlığı, dəyəri, azadlıq və müstəqillik haqqı sahib olduğu və edəcəyi sivilizasiya əsərləri ilə ölçülüdür. Mədəniyyət əsəri meydana gətirmə qabiliyyətindən məhrum olan cəmiyyətlər, azadlığından və müstəqilliyindən mücərrəd olunmağa məhkumdurlar. İnsanlıq tarixi bu dediyimi təsdiqləməkdədir. Mədəniyyət yolunda getmək və müvəffəqiyyətli olmaq həyat şərtidir. Bu yolda dayananlar və ya bu yolda irəli deyil geriyə baxma cahilliyində və laqeydliyində olanlar mədəniyyətin coşğulu selində boğulmağa məhkumdurlar. Əfəndilər, mədəniyyət yolunda müvəffəqiyyət yenilənməyə bağlıdır.

Sosial həyatda, iqtisadiyyatda, elmdə, fəndə müvəffəqiyyətli olmaq üçün tək inkişaf və irəliləmə yolu budur. Həyata suveren olan şərtlərin zamanla dəyişməsi, inkişafı və yenilənməsi zəruridir. Mədəniyyətin, kəşflərin, fənnin möcüzələri dünyası dəyişiklikdən dəyişikliyə apararkən, belə bir dövrdə əsrlik köhnə zehniyyətlərlə, keçmişə bağlılıqla varlığını davam etdirmək mümkün deyil.107

Sivilizasiya yolunda müvəffəqiyyət, yenilikləri qavrayıb tətbiq etməyə, yeniləşməyə bağlıdır.108

## Ailə təşkilatına əhəmiyyət verməlidir

Mədəniyyətdən danışarkən bunu da qəti şəkildə ifadə etməliyəm ki, mədəniyyətin əsası, inkişafı və gücün təməli ailə nizamındadır. Bu həyatda axsaqlıq, xalq olaraq iqtisadi və siyasi yaşayışda da müvəffəqiyyətsizliyin səbəbidir. Ailəni quran qadın kişinin, bu işə faydalı haqları və məlumatları əldə etmələri, bu tapşırığa istəkli və qabiliyyətli olmaları lazımdır.109

## İnkişaf edən elm və texnologiyanın təqibçisi olmalıdır

Millətimizin siyasi, sosial həyatında, millətimizin fikri tərbiyəsində də rəhbərimiz elm və fənn olacaq.110

Gözlərimizi bağlayıb mücərrəd yaşadığımızı fərz edə bilmərik. Məmləkətimizi bir çevrə içinə alıb dünya ilə əlaqəsiz yaşaya bilmərik. Tam əksinə inkişaf etmiş, mədəniləşmiş bir xalq olaraq sivilizasiya sahəsinin üzərində yaşayacağıq. Bu həyat ancaq elm və fənn ilə olar.111

Dünyada hər şey üçün, mədəniyyət üçün, həyat üçün, müvəffəqiyyət üçün ən həqiqi mürşid elmdir, fəndir. Elm və fənnin xaricində mürşid axtarmaq qəflətdir, cəhalətdir, dəlalətdir. Ancaq, elm və fənnin yaşadığımız hər dəqiqədəki mərhələlərini, inkişaflarını anlamaq və irəliləyişini zaman içində izləmək lazımdır... Çox xoşbəxt bir hisslə qavrayıram ki, qarşımdakılar bu həqiqətləri anlayırlar. Xoşbəxtliyim artır. Xoşbəxtliyim bunun üçün artır. Qarşımdakılar öyrətməkdə və yetişdirməkdə olduqları yeni nəsli də həqiqətin aydınlığının doğulmasına təsirli olacaq şəkildə hazırlayacaqlarına söz veriblər. Bu, hamımız üçün fəxr ediləcək bir nöqtədir. (22.9.1924, Samsunda müəllimlərlə görüş).112



Ölkəmizin ən mütərəqqi, ən lətif, ən gözəl yerlərini üç il yarım kirli ayaqları ilə tapdalayan düşməni məğlub edən zəfərin sirri haradadır bilərsinizmi? Orduların rəhbərliyində, elm və fənn qanunlarını bələdçi etməkdir. Xalqımızı yetişdirmək üçün təməl olan məktəblərimizin, ali məktəblərimizin qurulmasında eyni yolu izləyəcəyik.113

Bəli; xalqımızın siyasi, sosial həyatında xalqımızın düşüncə baxımından təhsilində də bələdçimiz elm və fənn olacaq. (1922).114



Ölkəmiz içində mədəni düşüncələrin, müasir inkişafın vaxt itirmədən yayılması və inkişafı lazımdır. Bunun üçün bütün elm və fənn adamlarının bu mövzudakı işi namus borcu bilməsi lazımdır.115

Müəllimlərimiz, ozanlarımız, ədəbiyyatçılarımız xalqa bu fəlakət günləri və onun həqiqi səbəblərini açıq və qəti olaraq yazıb söyləyəcəklər, bu quru günlərin geri dönməməyi üçün yer üzündə mədəni və müasir bir Türkiyənin varlığını tanımaq istəməyənlərə, onu tanımaq məcburiyyətində olduqlarını xatırladacaq. (1922)116

## Türk ordusunu göz bəbəyi kimi qorumalıdır

Türk ordusunun bir parçası, eyni dəyərdə olanı qəti şəkildə məğlub edər. İki qatını dayandırar və tərpənə bilməz hala gətirər. Hələlik bundan çoxunu istəmirəm. Çünki çoxunu millətimizin yaradılışdan sahib olduğu cəngavərlik onsuz da təmin etməkdədir. Ancaq, bu dəyəri nə edib qorumağımız lazımdır. Bunu bütün yoldaşlarımdan xüsusilə istəyirəm. Bu dəyər gizli qaldıqca təşkilatımızı, təlim və tərbiyəmizi, rəhbərlik və motivimimizi bu hədəf və məqsəd istiqamətində icra etdikcə, Türkiyə hər cür hücumdan uzaq qalacaq, bundan heç kimin şübhəsi ola bilməz.117





Türkiyə Cümhuriyyəti yalnız iki şeyə güvənər. Biri millətin qərarı, o biri də ən əzablı və çətin şərtlərdə dünyanın tərifini haqlı olaraq qazanan ordumuzun qəhrəmanlığıdır. Bu iki şeyə güvənər.118

Yoldaş, Türkiyə ən zəif olduğu düşünülən bir zamanda ən güclü olduğunu sübut etmişdir. Bu, ordusu sayəsində olmuşdur. Ordumuz vətən üçün zəfər qazanmışdır. Bu hadisə Türkiyənin fövqəladə canlılığına, müqəddəs dayanıqlılığına ən aydın dəlildir.119

Yoldaşlar, əmrinizdəki ordular qəhrəmanlığına həqiqətən etibarlı ordulardır. Bu ordular tarixdə bənzəri görülməmiş qəhrəmanlıqlar, fədakarlıqlar göstərmişdir. Şanlı zəfərlər qazanmışlar. Millətin və ölkənin minnət və təşəkkürlərini haqq etmişlər.120

## Gözəl əxlaqlı olmalı, mənəvi dəyərlərə sahib çıxmalıdır

Hər şeydən əvvəl mənəviyyat, qəlb və vicdan gücü yüksək tutulmalıdır.121

Müsbət elmlərin təməllərinə söykənən, gözəl sənətləri sevən, fikir tərbiyəsində olduğu qədər bədən tərbiyəsində də qabiliyyəti artmış və yüksəlmiş olan ərdəmli, qüdrətli bir nəsil yetişdirmək ana siyasətimizin açıq diləyidir.122

Milli Təhsilin məqsədi hökumətə təkcə məmur yetişdirmək deyil, daha çox məmləkətə əxlaqlı, potensiallı, Cümhuriyyətçi, inqilabçı, müsbət, cürətli, başladığı işlərin öhdəsindən gələ biləcək qabiliyyətdə, dürüst, düşüncəli, iradəli, həyatda rast gələcəyi maneələri aşmaqda qüdrətli, xarakter sahibi gənc yetişdirməkdir. Bunun üçün də təhsil proqramları və sistemləri ona əsasən təşkil edilməlidir. (1923)123



*"Həqiqətən də, əxlaq xüsusi fərdlərdən ayrı və bunların üstündə, ancaq sosial, milli ola bilər. Millətin sosial nizam və sakitliyi, hazırkı və gələcəkdəki rifahı, xoşbəxtliyi, dincliyi və toxunulmazlığı, sivilizasiyada irəliləməsi, yüksəlməsi üçün insanlardan hər mövzuda məlumat, səy, lazım olduqda fədakarlığı tələb edən milli əxlaqdır. Mükəmməl bir millətə milli əxlaqın gərəkləri o millət fərdləri tərəfindən sözün əsl mənasında mühakimə edilmədən vicdani, duyğusal bir səbəblə yerinə yetirilər. Ən böyük milli duyğu, milli həyəcan məhz budur. Millət analarının, millət atalarının, millət müəllimlərinin və millət böyüklərinin evdə, məktəbdə, orduda, fabrikdə, hər yerdə və hər işdə millət uşaqlarına, millətin hər fərdinə bezmədən və mütəmadi olaraq verəcəkləri milli tərbiyənin məqsədi, məhz bu yüksək milli duyğunu sağlamlaşdırmaq olmalıdır. Əxlaqın milli, ictimai olduğunu söyləmək və ortaq vicdanın bir ifadəsidir demək, eyni zamanda əxlaqın müqəddəs sifətini də tanımaqdır."124*

## Tolerant olmalıdır

Səmimi və qanuni olmaq şərti ilə hər fikrə hörmət edirik. Hər fikir biz tərəfindən möhtərəmdir.125

## Təhsilə əhəmiyyət verməlidir

Ən mühüm və səmərəli vəzifələrimiz milli təhsil işləridir. Milli təhsil işlərində mütləq müzəffər olmaq lazımdır. Bir millətin həqiqi qurtuluşu ancaq bu surətlə olar. (1922)126

Millətimizin siyasi, sosial həyatında, millətimizin fikri tərbiyəsində rəhbərimiz elm və texnika olacaq. Məktəb sayəsində, məktəbin verəcəyi elm və texnika sayəsindədir ki, Türk Milləti, Türk incəsənəti, iqtisadiyyatı, Türk şeiri və ədəbiyyatı, bütün gözəlliyi ilə inkişaf edir.127

Məktəb gənc beyinlərə, insanlığa hörməti, millətə və məmləkətə münasibəti, şərəfli istiqlalı öyrədər.

Ən böyük savaş, cahilliyə qarşı edilən savaşdır.

Müəllimlik ömür boyu sürəcək bir şagirdlikdir.

Cəmiyyətin düşməni cəhalət, cəhalətin düşməni müəllimdir.

Gələcəyin zəmanəti möhkəm təməllərə söykənən təhsilə, təhsil isə müəllimə söykənəndir.128

İnsanlar sadəcə maddi deyil, xüsusilə bu maddi qüvvənin özündə daşıdığı mənəvi qüvvənin təsiri ilə konstruktivdirlər. Millətlər də belədir. Mənəvi qüvvə xüsusilə elm və inancla yüksək bir şəkildə inkişaf edər. Elə isə hökumətin ən səmərəli və ən əhəmiyyətli vəzifəsi təhsil işləridir. Bu yolda müvəffəqiyyətli olmaq üçün elə bir proqram izləmək məcburiyyətindəyik ki, o proqram millətin bugünkü halına, sosial və həyati ehtiyaclarına, ətraf şərtlərinə, dövrün ehtiyaclarına uyğunluq təmin etsin, onlara uyğun olsun. Bunun üçün çox böyük, amma xəyali və qarışıq fikirlərdən uzaq dayanıb həqiqətə dərinliklərini görərək baxmaq, toxunmaq lazımdır. (1.3.1922, TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİ, 1-ci çağırış, 3-cü iclası, açılış nitqi)129




Bu ölkənin həqiqi sahibi və cəmiyyətimizin təməl elementi kəndlidir. Məhz bu kəndli bu günə qədər təhsildən məhrum buraxılmışdır. Elə isə bizim izləyəcəyimiz təhsil siyasətinin təməli əvvəl cəhaləti yox etməkdir. Detala girməkdən qaçınaraq bu fikrimi bir neçə sözlə açıqlamaq üçün deyə bilərəm ki, ümumiyyətlə bütün kəndliyə oxuma, yazma öyrətmək, vətənini, millətini, dinini, dünyasını tanıyacaq qədər coğrafiya, tarix, din və əxlaq məlumatı vermək, dörd əməliyyatı öyrətmək təhsil proqramımızın ilk hədəfidir. Əfəndilər, bu hədəfə çatmaq təhsil tariximizdə müqəddəs bir mərhələ olacaq. Bir tərəfdən cahilliyi yox etməyə çalışarkən o biri yandan da ölkə övladlarını sosial və iqtisadi həyatda təsirli və faydalı vəziyyətə gətirmək üçün lazımlı olan ilk məlumatları praktik olaraq vermə üsulu, təhsilimizin təməl qanununu meydana gətirməlidir. Əfəndilər, mədəni, müasir bir cəmiyyətin elm və mədəniyyət yolunda bu qədərlə kifayətlənə bilməyəcəyi şübhəsizdir. Millətimizin inkişaf dahiliyi və bundan dolayı layiq olduğu sivilizasiya səviyyəsinə çıxması təbii olaraq yüksək peşədən insanlar yetişdirmək və milli mədəniyyətimizi ucaltmaqla mümkündür. (1.3.1922, TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİ, 1-ci çağırış, 3-cü iclası, açılış nitqi)130

## Sənətə əhəmiyyət verməlidir

Sənətsiz qalan bir millətin həyat damarlarından biri qopmuş deməkdir.131

Əfəndilər siz həyatınızda deputat ola bilərsiniz, nazir ola bilərsiniz, hətta prezident ola bilərsiniz. Lakin heç bir zaman sənətkar ola bilməzsiniz.132

Müsbət elmlərin təməllərinə söykənən, gözəl sənətləri sevən, fikir tərbiyəsində olduğu qədər bədən tərbiyəsində də qabiliyyəti artmış və yüksəlmiş olan ərdəmli, qüdrətli bir nəsil yetişdirmək ana siyasətimizin açıq diləyidir.133




Türk Millətinin getməkdə olduğu tərəqqi və mədəniyyət yolunda əlində və başında tutduğu məşəl, müsbət elmdir. Bunun üçündür ki, millətimizin yüksək xarakterini, yorulmaz çalışqanlığını, doğuşdan zəkasını, elmə bağlılığını, gözəl sənətlərə sevgisini, milli birlik duyğusunu, hər zaman və hər cür vasitə və tədbirlərlə bəsləyərək inkişaf etdirmək milli idealımızdır.134

Bir milləti yaşatmaq üçün bəzi təməl işlərə ehtiyac var və bilirsiniz ki, bu təməl işlərin ən əhəmiyyətlilərindən biri sənətdir. Bir millət sənətdən və sənətkardan məhrumdursa tam bir həyatı yox deməkdir. Belə bir millət bir ayağı topal, bir qolu sınıq, şikəst, axsayan biri kimidir. Hətta söylədiklərim, söyləmək istədiklərimi ifadə etməyə kifayət belə deyil. Sənətsiz qalan bir millətin həyat damarlarından biri qopmuş olar. Tək bunu deyim ki, sənətkar yetişdirmək millətlərə yetməz... Bir millət sənətə əhəmiyyət vermədiyi müddətcə fəlakətə məhkumdur. Bir çox kimsə fəlakətin dərəcəsini anlamaz. Anladığında da nə qədər qorxunc bir səy göstərmək məcburiyyətində olduğunu təxmin edə bilməz.135

## İdmana əhəmiyyət verməlidir

Əfəndilər, dünyada idman həyatı, idman aləmi çox əhəmiyyətlidir... Mən sizə xalq baxımından, ölkə övladları cəhətdən idmanın mənim gözümdə nə qədər əhəmiyyətli olduğunu izah etmək üçün bunu deyə bilərəm. Müqəddəs vətəni, Türk Millətinin yüksək qürurunu və mənfəətlərini müdafiə edən ordudur. Bundan daha əhəmiyyətli, bundan daha uca bir dayaq nöqtəsi düşünülə bilərmi? Xüsusilə bugünkü Cümhuriyyət Ordusundan danışarkən bundan daha uca bir qüvvə hazırlana bilərmi? Məhz bu qiymətli, bu yüksək, bu uca qüvvənin qarşısında sizə səslənərək deyirəm ki, bütün millət və bütün ölkə övladlarını idmançı etmək üçün sərf edilən səyin əhəmiyyəti və müqəddəsliyi eyni dərəcədə qiymətli və əhəmiyyətlidir. (30.9.1926, Çankayada Türk İdman Cəmiyyətləri Birliyi heyətinə xitab olaraq etdiyi çıxışından)136

## Hörmətli Adnan Oktarın Çay TV müsahibəsi, 18 fevral 2008-ci il

Aparıcı: Əfəndim belə bir sualla davam etmək istəyirəm. Sizin ifadələrinizdə diqqət çəkən bir mövzu var. Həm dinini sevməkdən, Allahı sevməkdən, Allah yolunda getməkdən bəhs edirsiniz, həm ölkəsini, vətənini, millətini sevməkdən bəhs edirsiniz. Amma həmişə belə bir ziddiyyət yaradıldı. Bir adam vətənini sevirsə, vətənim yerində olsun deyirsə o sanki dinsizmiş kimi göstərildi və ya dinini sevirsə vətənini sevməz mütləq dininə bağlanacaq kimi göstərildi. Atatürkü sevən dinini sevməz, dinini sevən Atatürkü sevməz kimi bir düşüncə hakimdir bir çox insanda. Belə bir şey ola bilər? Bu əslində bir ziddiyyət deyil?

Adnan Oktar: Bax mason lojalarında o tüstülü, marixuanalı başla bu cür planlar edirlər. Atatürkdən milləti necə uzaqlaşdıra bilərik? Dinlə milliyyətçiliyi necə bir-birindən ayıra bilərik? Vətən sevgisi ilə dini necə bir-birindən uzaq tutarıq kimi özlərinə görə o ağlını itirmiş küt başları ilə, o daş başları ilə, o odun başları ilə planlar qururlar amma bunlar çox qıt fikirlərdir. Bunlara heç kim əhəmiyyət verməz. Vətən sevgisi, millət sevgisi, din sevgisi iç-içədir. Atatürk sevgisi də yenə bununla iç-içədir. Atatürkün dindarlığı çox nadir insanda rast gəlinir. Hansı insan hər gecə Quran oxuyur? Hansı insan, Buxarini tərcümə etdirək bütün millət oxusun deyər? Hansı insan Almalılı təfsirini etdirək bütün millətim bunu oxusun deyər? Hansı insan Diyanət İşləri Nazirliyi qurar? Hansı insan eşqlə, coşğu ilə Allahdan, Peyğəmbər (s.ə.v)-dən bəhs edər bu qədər çox? Nadirdir. Dindar insanlar belə çox nadir olaraq bunu edərlər. Barmaqla sayılar belə insanlar. Atatürkün dindarlığı görülmüş bir dindarlıq deyil. Çox nadir insanda görülür.

Aparıcı: Bir az da məqsədli olaraqmı ön plana çıxarılmır bu?

Adnan Oktar: Təbii ki, əxlaqsızlıqlarından. Atatürkü tək görürlər öz ağıllarına görə. Bax tək idi. Tək deyil Atatürk. 70 milyon insan var yanında Atatürkün. 80 milyon insan var. Hətta yüzlərlə milyon insan var. Türk aləmi də Atatürkü sevir. Qoysunlar bir kənara bunu. Bu oyunların suyu çoxdan qaynadı. Bu mövzular bitmişdir. Heç kim inanmaz bunlara. Ritual işdir, deyirlər, söz verilmir. Atatürkün qurduğu Türkiyə ortadadır. Son dərəcə azadıq, bax açırıq Quranı nə gözəl oxuyuruq. İngilis əsgəri yoxdur hal-hazırda. İstanbuldayıq biz, elə deyil? Çöldə İngilis əsgəri

görürsünüz? Görmürük. Deməli biri gəlib, gözəl bir iş görüb. Allah onu vəzifələndirmiş və xeyirlə nəticələndirmişdir.

# Nümunəvi Türk gənci: Atatürk

İdeal Türk gəncinin necə olacağını izah edərkən bir nümunə göstərmək istəsək, ağla əvvəlcə Atatürkün öz gəncliyi gəlir. Çünki yaşadığı çətin şərtlər, döyüşlər, qarşıdurmalar, qarşısındakı güclü düşmənlər nəzərə alındığında, dünya tarixində Mustafa Kamal kimi bir nümunə tapmaq olduqca çətindir.

Onun həyatı özünü millətinə həsr etmiş, tək üstünlüyü ölkəsinin yaxşı gələcəyə qovuşmasına vermiş, idealist bir adamın həyatıdır. Bu hissədə Atatürkün doğumundan 19 may 1919-cu ilə qədər olan həyatı müxtəlif nümunələrlə göstəriləcək. Bu hissənin hazırlanmasındakı məqsəd Türkiyə Cümhuriyyətini qorumaq və ölkəmizi mədəni ölkələr səviyyəsinə çıxarmaq kimi böyük bir məsuliyyətə sahib olan Türk gəncinə yol göstərməkdir. Çünki Mustafa Kamal əzmi, dayanıqlılığı, cəsarəti, təşəbbüsü, çətinliklər qarşısında qorxmamağı, çalışqanlığı və daha bir çox gözəl xüsusiyyəti ilə qarşımızdakı həqiqi bir nümunədir. Bu gün hər Türk gənci özünə onu nümunə götürməli və onun sözlərində ifadə etdiyi ideallarını yerinə yetirmək üçün canla-başla işləməlidir. Çünki Atamızın söylədiyi kimi: “Sizlər, yəni yeni Türkiyənin gənc övladları! Yorulsanız belə məni izləyəcəksiniz... Dincəlməmək üzrə getməyə qərar verənlər, əsla və əsla yorulmazlar. Türk Gəncliyi məqsədə, bizim yüksək idealımıza dayanmadan, yorulmadan gedəcək.”

## Mustafa Kamal həqiqi bir lider idi



Mustafa Kamal Atatürk, 1881-ci ildə Səlanikdə dünyaya gəldi. Atası Əli Rıza əfəndi, anası Zibeydə xanımdır. Əli Rıza əfəndi Səlanik yerlilərindən idi. Əli Rıza əfəndi, həyatının ilk dövrlərində gömrük məmuru işləmiş, daha sonra məmurluğu tərk edərək taxta-şalban ticarəti ilə məşğul olmuşdu. Atatürkün anası Zibeydə xanımın ailəsi də soy olaraq Anadoludan Rumeliyə keçmiş yörüklərdən idi.

1871-ci ildə Zibeydə xanım ilə evlənən Əli Rıza əfəndinin hələ əlli yaşlarında ikən 1888-ci ildə ölməsindən sonra, Mustafa yeddi-səkkiz yaşlarında yetim qalmışdı. Onun böyüdülməsindən, təhsilindən və yetişdirilməsindən anası məsul idi. Mustafa anasının arzusuna uyğun olaraq bir müddət Hafiz Məmməd əfəndinin məhəllə məktəbində təhsil aldı. Daha sonra da atasının istəyi ilə Səlanikdə hərbi təhsil verən Şəms Əfəndi Məktəbinə keçdi və ibtidai məktəbi burada bitirdi. Mustafa bu məktəbdə oxuyarkən atasını itirdi.

Əli Rıza əfəndinin ölümündən sonra, Zibeydə xanım uşaqları ilə birlikdə Səlanik yaxınlarında yaşayan qardaşı Hüseyn əfəndinin yanına köçdü. Bu ferma həyatı ilə Mustafanın təhsili bir müddət axsadı. Ancaq qısa müddət sonra Səlanikdə bibisinin yanına köçərək, təhsilinə qaldığı yerdən davam etdi. Bir müəlliminin özünə haqsız yerə çubuq ilə vurmasına görə bu məktəbdən ayrıldı. Mustafa Kamal, bu dövrə aid bir xatirəsini öz ağzından bu şəkildə deməkdə və daha kiçik yaşlarda da bir təlimçi olduğunu ortaya qoymaqdadır:

> *“Müəllimim sərt bir adam idi. Sinifdə birinci, ikinci tanımırdı. Bir gün bizə:*

- Aranızda kimlər özünə güvənirsə qalxsınlar, onları o biri yoldaşlarını işlətməklə vəzifələndirəcəyəm, dedi.

Mən əvvəl duruxdum. Elə yoldaşlar ayağa qalxdı ki, mən qalxmamağı üstün tutdum. Qalxanlardan birinin şagirdi oldum. Amma onu işlətmələrinə dözə bilmədim və bir gün ayağa qalxaraq:

- Mən bundan daha yaxşı edərəm, dedim.

Bunun üzərinə müəllim mənə şagird işlətmə vəzifəsi verdi və daha əvvəl məni işlədəni də mənə şagird etdi.”137

1893-cü ildə öz qərarı ilə Hərbi məktəbə müraciət edərək təhsilinə burada davam etdi. Yaz vaxtları, dayısı Hüseyn əfəndinin yanına gedər, məktəb vaxtına qədər fermada qalardı. Bu məktəbdə qısa müddətdə zəkası və üstün qabiliyyətləri ilə ön plana çıxdı və müəllimlərinin sevgisini qazandı. Eyni adı daşıdığı riyaziyyat müəllimi tərəfindən özünə “Kamal” adı verildi.

Atatürk 22 sentyabr 1924-cü ildə Samsunda müəllimlərin olduğu bir yığıncaqda aldığı təhsil haqqında bunları demişdir:

> *“...Bununla birlikdə xatırlamaq lazımdır ki, həqiqi və fədakar müəllimlər, pedaqoqlar əskik deyildi. Onların bizə keçdikləri dərs əlbəttə əsərsiz qalmamışdır. İndi burada bir uca adama rast gəldim. O, mənim Rüşdiyə birinci sinifdə müəllimim idi. Mənə hələ ilk məlumatları öyrədərkən gələcək üçün ilk fikirləri də vermişdi. Demək istəyirəm ki, ilk ilham ana-ata qucağından sonra məktəbdəki pedaqoqun dilindən, vicdanından, tərbiyəsindən alınar...”138*

Mustafa Kamal, Səlanik hərbi məktəbini bitirdikdən sonra, 1896-cı ildə Bitola Hərbi Liseyinə girdi. Burada Ömər Naci ilə yoldaşlıq etdi. İrəlidə məşhur natiq olaraq tanınacaq olan Ömər Naci, Mustafa Kamalın natiqlik və ədəbiyyat sevgisində əhəmiyyətli rol oynadı. Yaxın yoldaşlarından biri olacaq olan Əli Fəthi (Okyar) da bu məktəbdə şagird idi. Mustafa Kamal, hərbi təhsili ilə bərabər xarici dil təhsilinə də laqeyd yanaşmır; yaz vaxtlarında Fransız dili dərsləri alırdı. 1888-ci ildə qurulmuş olan Tophane səmtindəki “College des Freres de Salle” (Frerler məktəbi)nin xüsusi kurslarına özünü qeyd etdirib, dərsləri nizamlı olaraq izləyirdi. Bu xüsusi dərslərdə Mustafa Kamalın müəllimlərindən biri Frere Rodriquez (1849-1941) idi. Bu adamın izah etdiyinə görə, Mustafa Kamal çox ciddi, ağıllı və çalışqan, əlində daim kitab olan bir gənc idi və zabit olduqdan

sonra da zaman-zaman ondan dərs almağa gəlirdi. Mustafa Kamal, həqiqətən liseydən başlayaraq gənclik illərində Fransızca öyrənməyə böyük əhəmiyyət vermişdir. O, "bir qərargah zabiti mütləq xarici dil bilməlidir, bunun əksini düşünmək böyük səhvdir" deyirdi.139



Mustafa Kamalın nə qədər çalışqan bir şagird olduğu öz sözlərindən bu şəkildə ortaya çıxmaqdadır:

> *"Hərbi liseyi bitirdiyimdə marağım xeyli irəliləmişdi. Bitola Hərbi Liseyindəki riyaziyyat mənə çox asan gəldi. Mövzu ilə maraqlanmağı davam etdirdim. Amma Fransızcada geridə idim. Müəllim mənimlə çox maraqlanmır, ağır xəbərdarlıqlar edirdi. Bu xəbərdarlıqlar mənə çox ağır gəldi. İlk tətildə buna bir çarə axtardım. İki-üç ay gizlicə Frerler məktəbinin xüsusi sinfinə davam etdim. Beləcə məktəbdə öyrədiləndən daha yüksək səviyyədə Fransız dilində öyrəndim.*

O vaxta qədər ədəbiyyatla çox əlaqəm yox idi. O sıralar, Ömər Naci, Bursa Orta məktəbindən qovulmuş, bizim sinifə gəlmişdi. Şeirlər yazırdı. Məndən oxuyacaq kitab istədi. Bütün kitablarımı göstərdim, heç birini bəyənmədi. Bir yoldaşımın kitablarımın heç birini bəyənməməsi mənə ağır gəldi. Şeir və ədəbiyyat deyə bir şeylərin olduğunu o vaxt fərq etdim. Bu mövzuda işə başladım.140

Gənc Mustafa Kamal, Bitola Hərbi Liseyini də müvəffəqiyyətlə bitirərək 13 mart 1899-cu il tarixində İstanbulda Hərb Məktəbinə girdi. 3 illik müvəffəqiyyətli hərbi təhsilindən sonra 10 fevral 1902-ci ildə bu məktəbi leytenant rütbəsi ilə bitirdi və təhsilinə hərbi akademiyada davam etdi. 1903-cü ildə baş leytenant olmuşdu. 11 yanvar 1905-ci il tarixində də qərargah kapitanı rütbəsi ilə hərbi akademiyadan məzun oldu. Hərbi məktəbdə və hərbi akademiyada da zəkası, qabiliyyətləri və üstün şəxsiyyəti ilə tanınmış, çox böyük sevgi və hörmət qazanmışdı.

Ən çox ön plana çıxan tərəfləri isə riyaziyyata və ədəbiyyata olan marağı ilə birgə, güclü natiqlik qabiliyyəti idi. Məmləkət və millət idealları ilə maraqlanması, düşüncələrini cəsurca ifadə etməsi, qorxusuzluğu, aydın və inqilabçı şəxsiyyəti ilə tanınmışdı. Yenə özü belə izah etməkdədir:



*“Qərargah siniflərinə keçdik. Vərdiş etdiyim nizamda dərslərimə çox möhkəm çalışırdım. Dərslərdən kənar məndə və bəzi yoldaşlarda yeni fikirlər meydana çıxmağa başladı. Ölkənin rəhbərliyində və izlənilən siyasətdə pis əməllər olduğunu kəşf etməyə başladıq. Minlərlə adamdan ibarət olan hərbi məktəb şagirdlərinə bu kəşfimizi izah etmə həvəsinə düşdük. Məktəb şagirdləri arasında oxunması üçün əl yazısı ilə hazırlanmış bir qəzet qurduq. Sinif içində kiçik bir təşkilatımız var idi. Mən idarə heyətində idim. Qəzetin yazılarını ümumiyyətlə mən yazırdım... Qərargah siniflərinin sonlarına qədər biz bu işləri davam etdirdik. Kapitan olaraq məktəbdən ayrıldıqdan sonra İstanbulda keçirəcəyimiz müddət ərzində bu işlərlə daha çox məşğul ola bilmək üçün yoldaşlardan birinin adına ev kirayəyə götürdük. Hərdənbir orada toplanırdıq. Bu hərəkətlərimiz bilinir və izlənilirdi.”141*

Mustafa Kamalın lider şəxsiyyəti onunla tanış olan hər adamda çox dərin təsir buraxırdı. Bu kəslərdən biri də Osman Nizami Paşa idi. Osman Nizamı Paşa tanış olduqdan qısa bir müddət sonra Mustafa Kamala bunları söyləyir.

*“Mustafa Kamal Əfəndi oğlum, sən, bizlər kimi Ali Hərbi zabit olaraq normal bir həyata atılmayacaqsan. İti zəkan və yüksək qabiliyyətin məmləkətin gələcəyi üzərində təsirli olacaq. Bu sözlərimi bir kompliment olaraq qəbul etmə. Səndə, məmləkətin başına gələn böyük adamların hələ gəncliyində göstərdikləri müstəsna qabiliyyət və ağıllı əlamətlərini görməkdəyəm. İnşaAllah yanılmamış olaram.”142*

Böyük bir despotizm idarəsi altında yaşamasına baxmayaraq bu rəftarları onun əleyhinə olmadı. Çünki o ətrafında çox sevilir, səmimiyyətinə inanılır və tanış olduğu insanlarda dərhal böyük bir güvən meydana gətirirdi. Bununla birlikdə Hərbi Akademiyadan məzuniyyəti ərəfələrində despotizm və padşahlıq rejimi əleyhinə düşüncələri və vəziyyəti səbəbi ilə şübhə çəkdi və İstanbulda bir neçə ay məhbus qaldı. Daha sonra da 5 fevral 1905-ci il tarixində Suriya bölgəsinə bir növ sürgünə göndərildi.

## Sürgündə başlayan böyük mübarizə

Şamda 5-ci Ordunun əmrində qaldığı üç il ərzində Suriyanın demək olar hər yerini vəzifə ilə gəzdi, ölkə rəhbərliyindəki axsaqlıqları, orduda əksiklikləri daha yaxından gördü. 1906-cı ilə gəldikdə isə artıq ölkəsi üçün bir şeylər etməsi zamanı gəldiyini anlamışdı. Oktyabr ayında güvəndiyi bəzi yoldaşları ilə birlikdə gizlicə “Vətən və Azadlıq Cəmiyyəti”ni qurdu. Daha sonra

Beyrut, Yafa və Qüdsdə də qurduqları bu cəmiyyəti genişlətdi. Bir ara gizli olaraq Misir və Yunanıstan yolu ilə Səlanikə keçərək burada da "Vətən və Azadlıq Cəmiyyəti"nin bir şöbəsini açdı. Yunanıstana keçməsi və bu dövrdə yaşadıqları onun mübarizəçi şəxsiyyətini, cəsarətini, ölkəsinin və xalqının mənfəətini hər şeydən üstün tutmasını gözlər önünə sərməkdə idi. O dövrdə yaşadıqlarını Mustafa Kamal Atatürk bu şəkildə izah etməkdədir:

> *"...Suriyaya sürgün edildim. Şamdakı bir süvari birliyində şagirdlik etməklə vəzifələndirilmişdim. O sıralar Druzlarda bəzi problemlər var idi. Druzların üstünə hərbi qüvvələr göndərilirdi. Mən vəzifə yerinə getdim və dörd ay orada qaldım. Orada "Azadlıq Cəmiyyəti" adında bir dərnək qurduq. Bunu genişlətmək məqsədi ilə gördüyümüz tədbirlər arasında mənim müxtəlif hərbi siniflərdə şagirdlik etmək bəhanəsi ilə Beyrut, Yafa və Qüdsə getməyim də var idi.*



Buna görə hərəkət etdim. Saydığım yerlərdə təşkilatlanıldı. Yafada daha çox qaldım. Oradakı təşkilat daha güclü oldu. Ancaq Suriyada istədiyimiz səviyyədə təşkilatlanma mümkün görünmürdü. Mənim qənaətim Makedoniyada işin daha sürətli gedəcəyi idi. Ora getmək üçün çarə düşünürdüm.

Sürgünə göndərilməyimlə əlaqədar olaraq haqqımdakı qərarda "asan yollardan məmləkətinə gedə bilməyəcəyi bir yerə göndərilməsi" qeydi var idi. Bu baxımdan Makedoniyaya getmək xeyli çətin idi. O sırada bir səhv nəticəsində olduğunda şübhə yaratmayan bir icazə sənədi əlimizə keçdi. Buna səhv deyilə bilər. Amma bu səhv, burada çalışan komitə üzvlərinin səylərinin nəticəsi olaraq ortaya çıxmışdı.

Bu sənədə görə icazəli olaraq İzmirə gedə biləcəkdim. İşim içində bir səhv olduğunun meydana çıxa biləcəyini anlayırdım. O anlarda Səlanikdə topçu müfəttişi olan Şükrü Paşanın çox vətənpərvər biri olduğundan danışılırdı. Ona bir məktub yazdım. Özümü və məqsədimi az çox izah etdim. Bu məqsədlərin ən qısa müddətdə reallaşması Makedoniyaya getməyimə bağlı idi. Onun haqqında eşitdiklərim doğrudursa Makedoniyaya getməyimə vasitəçilik etməsini xahiş etdim. Birbaşa cavab vermədi. Amma, hər hansı bir yoldan Səlanikə getsəm problemin həll edilə biləcəyini bilavasitə olaraq bildirildi.

İcazə sənədini cibimizə qoyduq. Makedoniyaya getmək üzrə hərəkət etdim. Amma hərəkətdən sonra işin ortaya çıxması ehtimalına qarşı tədbir üçün, izimizi itirmək məqsədi ilə əvvəl Misirə, sonra Yunanıstana getdim. Əgər bir məlumat əldə edilsə oralardan keçərkən Yafadan bildirəcəkdilər. Heç bir şey yazmadılar. Şəkil dəyişdirib başqa adla Səlanikə girdim. Bir gecə Şükrü Paşanı gördüm. Mənimlə təmasdan çəkinirdi. Mən ciddi bir dayaq nöqtəsi tapa bilmədən dörd ay Səlanikə qaldım. O vaxt məktəb müdiri Tahir bəy, Hoca İsmail əfəndi, Ömər Naci, Hüsrev Sami, Haqqı Baha kimi yoldaşlara məqsədlərimizi izah etdim. "Azadlıq Cəmiyyəti"nin şöbəsini qurdum.

İstanbulda, Səlanikdə olduğum öyrənildikdə haqqımda istintaq başladı. Oradan yenə şəkil və ad dəyişdirərək Yafaya keçdim. O vaxtlar bir Aqaba problemi var idi. Özümü dərhal sərhəddə vəzifələndirdim. Axtarılanda sərhəddə ortaya çıxdım.

Cəmi olaraq iki ay yarım-üç ay Suriyada qaldım. Bu müddət ərzində hər şey unudulmuşdu. Makedoniyaya köçürülməyim üçün rəsmi müraciət etdim. Məqsədim reallaşdı."143

Mustafa Kamal Səlanikdən sonra təkrar Şama qayıtdı. Şamdan uzaqlaşdığı hökumət tərəfindən deyilsə də, yüksək rütbədəki komandirləri sayəsində cəza almadı. 1907-ci ildə kapitan oldu və Şamdakı ordunun Qərargah rəhbərliyində vəzifəyə gətirildi.

Mustafa Kamal 13 oktyabr 1907-ci ildə mərkəzi Bitolada olan 3-cü Ordu Qərargahına təyin edildi. Bu qərargahın Səlanikdəki şöbəsində işləmək üçün Səlanikə gəldi. Bu ərəfələrdə Səlanikdəki "Vətən və Azadlıq Cəmiyyəti" üzvlərini də içinə almış olan "Birlik və Tərəqqi" cəmiyyəti fəaliyyət halında idi. Mustafa Kamal da Səlanikə gəlişini izləyən günlərdə bu cəmiyyətdə xidmət etməyə başladı. 22 iyun 1908-ci ildə Skopye-Səlanik arasındakı dəmiryolu müfəttişliyi vəzifəsi də 3-cü Ordu Qərargahındakı vəzifəsinə əlavə olaraq ona verildi.

Bu sırada "Birlik və Tərəqqi Cəmiyyəti" Əbdülhəmidi, 1876-cı il Konstitusiyasını yenidən qüvvəyə qoymağa və bağlanan Məclis-i Məbusanı təkrar iclasa çağırmağa məcbur etməkdə idi. Bu cəhdlərin nəticəsində İkinci Məşrutiyyət elan edildi.

## İkinci Məşrutiyyət elanı



23 iyul 1908-ci il tarixində İkinci Məşrutiyyət elan edildiyi zaman Mustafa Kamal, köməkçi mayor rütbəsi ilə Səlanikdə vəzifəsini davam etdirməkdə, bir tərəfdən də "Birlik və Tərəqqi Cəmiyyəti"nin işlərini izləməkdə idi. Ancaq nə İkinci Məşrutiyyət, nə də sonrasında edilənlər Mustafa Kamal üçün kifayət deyildi. Ölkəsinin gələcəyi üçün daha köklü və daha böyük bir inqilabın lazımlı olduğuna inanırdı. Məhz "Birlik və Tərəqqi Cəmiyyəti"nin liderləri ilə də bu nöqtədə ayrılırdı.

İkinci Məşrutiyyətin üzərindən hələ bir il keçmiş idi ki, İstanbulda 14 aprel 1909-cu ildə böyük bir üsyan başladı. Mustafa Kamal, 31 mart hadisəsi olaraq bilinən bu üsyanı yatışdırmaq üçün Rumelidə yaradılan Hərəkət ordusunun qərargah rəhbərliyinə gətirildi və bu ordu ilə 19 aprel 1909-cu il tarixində İstanbula gəldi. Hərəkət ordusunun İstanbula girdiyi gün xalqa xitab olaraq nümayiş olunan bəyannaməni özü yazdı. Hərəkət ordusunun vəziyyətə hakim olmasından sonra Əbdülhəmid taxtdan endirildi, yerinə Sultan Rəşad gətirildi. Mustafa Kamal, bu hadisənin yatışdırılmasından sonra İstanbulda qalmayıb, Səlanikə qayıtdı.

Mustafa Kamal, 15 yanvar 1911-ci ildə 3-cü ordu qərargahındakı vəzifəsindən alınaraq, əvvəl 5-ci korpus qərargahında, daha sonra yenə Səlanikdə olan 38-ci piyada alayında vəzifələndirildi. Bu

vəzifədə də böyük müvəffəqiyyətlər göstərdi; keçmişdə olduğu kimi yenə komandirlərinin, yoldaşlarının sevgi və hörmətini qazandı. Səlanik qarnizonundakı zabitlər getdikcə onun ətrafında toplanırdılar. Bu vəziyyət 3-cü ordu müfəttişliyinin xoşuna gəlmədi. Onu Səlanikdəki vəzifəsindən ayıraraq 27 sentyabr 1911-ci il tarixində İstanbulda baş qərargah rəhbərliyində bir vəzifəyə təyin etdilər. Mustafa Kamal bu təyinat üzərinə İstanbula gələrək bir müddət baş qərargah rəhbərliyində çalışdı.

5 oktyabr 1911-ci ildə İtalyanlar Trablusqarbə hücum edərək işğal etməyə başlamışdılar. Mustafa Kamal, bu bölgədə vəzifə almaq üçün 15 oktyabr 1911-ci ildə İstanbuldan ayrıldı. Trablusqarbə gəlişindən sonra bir müddət Tobruq və Derna bölgələrində könüllü yerli qüvvələrin başçısı oldu. 12 mart 1912-ci ildə Derna komandanlığına gətirildi. Bu ərəfələrdə 27 noyabr 1911-ci il tarixində mayor rütbəsinə qaldırdı.

1912-ci ilin oktyabrında Balkan döyüşü başladı, Mustafa Kamal, 24 oktyabr 1912-ci ildə Trablusqarbdən hərəkət edərək İstanbula gəldi. 21 noyabr 1912-ci ildə Geliboluda olan Aralıq dənizi boğazı Kuvay-ı Mürəttəbəsi komandanlığının hərəkat şöbəsi sədrliyinə təyin edildi. Bu tapşırıqdan sonra Geliboluya gəldi. Hadisələr sürətlə inkişaf etmiş, ata məmləkəti Səlanik süqut etmiş, Bolqar ordusu irəliləyərək Çatalcaya qədər gəlmişdi. Bu vəziyyət onu çox üzdü. Bu cəbhədə bir müddət sonra Bolayır korpusunun qərargah rəhbərliyinə gətirildi. Bu vəzifədə ikən Dimetoka və Ədirnənin düşməndən geri alınmasında böyük xidmətləri oldu.

Balkan müharibəsindən sonra 27 oktyabr 1913-cü il tarixində Sofiya hərbi attaşe təyin edildi. Mustafa Kamal 1 mart 1914-cü il tarixində podpolkovnikliyə yüksəldildi. 1915-ci il yanvar ayının sonlarına qədər Sofiyada qaldı.

## I Dünya Müharibəsində göstərdiyi qəhrəmanlıqlar



1 avqust 1914-cü ildə Almaniyanın Rusiyaya müharibə elanı ilə I Dünya Müharibəsi başladı. Mustafa Kamal gedişatı yaxından izləməkdə və fikirlərini hərbi nəzarətə bildirməkdə idi. Ona görə qatılma zəruri hala gəlmədikcə Osmanlı Dövləti bu böyük müharibədən kənar qalmalı idi. Ancaq gedən proseslər səbəbi ilə 29 oktyabr 1914-cü ildə Osmanlı Dövləti, istər-istəməz ittifaq dövlətləri yanında müharibəyə girmək məcburiyyətində qaldı. Mustafa Kamal bu hadisələrə görə baş komandanlıqdan özünə fəal bir xidmət istəsə də uzun müddət bu istəyi yerinə yetirilmədi. Bu dövrdə nələr etdiyini Mustafa Kamal belə izah edir:

> *“Birinci Dünya Müharibəsi elan edildi. O ərəfədə Təkirdağda yeni qurulan 19-cu diviziyaya komandir olmaq üçün müraciət etdim və komandir oldum. Arıburnunda, Anafartalarda oldum. İngilislər çəkilib getdikdən sonra bir ay Ədirnədə 16-cı korpus ilə qaldım. Sonra korpus komandiri olaraq Diyarbəkirə və ətrafına getdim. Orada etdiyimiz əhəmiyyətli müharibələrdən biri Bitlis və Muşun Ruslardan geri alınmasıdır.”144*

Düşmən birlikləri 25 aprel 1915-ci il günü Səddülbahir və Arıburnu bölgəsindən ilk işğal hərəkatına başladı. Ancaq işğal hərəkatı ilk gün qarşısında Mustafa Kamalı tapdı. Mustafa Kamal, işğalın başladığını görən kimi, qüvvələrini sürətlə Bigalıdan Conkbayırına göndərdi. Arıburnundan Conkbayırına irəliləyən İngilis qüvvələri, o gün, Mustafa Kamalın əmr etdiyi 19-cu diviziya qüvvələrinin hücumu ilə geri çəkilməyə məcbur edildi.



Conkbayırı hücumunda Türk əsgəri görülməmiş bir inanc və cəsarətlə döyüşür, tarixin ən böyük qəhrəmanlıq səhnələri sərgilənirdi. Dahi lider, komandirlərə belə əmr etmişdi:

> *“Mən, sizə hücum əmr etmirəm; ölməyi əmr edirəm! Biz ölənə qədər keçəcək zaman ərzində yerimizə başqa qüvvələr və komandirlər keçə bilər!”*

İrəliləmək istəyən İngilislərlə bəzən şiddətli vuruşmalar oldu; ancaq hər hücum Türk əsgərinin qəhrəmanca müdafiə etməsi qarşısında müvəffəqiyyətsiz oldu. Mustafa Kamal, Çanaqqala cəbhəsindəki bu üstün müvəffəqiyyətlərinə görə 1 iyun 1915-ci ildə polkovnikliyə yüksəldildi. İngilislər 6 və 7 avqust 1915-ci il günlərində, gücləndirilmiş qüvvələrlə yeni bir hücum daha sınadılar; düşmən qüvvələri ilə, qüvvələrimiz arasında şiddətli müharibələr oldu. Ancaq, Mustafa Kamalın gördüyü tədbirlər sayəsində düşmənin bu hücumu da irəliləmə imkanı tapa bilmədi. Arıburnu və Səddülbahirdəki hücum davam edərkən İngilislər 6 avqust 1919-cu il axşamı Çanaqqalanın Cənub sahillərinə də əsgər gətirərək irəliləməyə başladılar. Baş verən bu kritik vəziyyətə görə Anafartalar qrupu komandanlığına 8 avqust 1915-ci il tarixində polkovnik Mustafa Kamal gətirildi. 9 avqust 1915-ci il günündə əmri ələ alan Mustafa Kamalın eyni gün etdiyi hücum ilə irəliləyən İngilis qüvvələrini təkrar işğal etdikləri sahillərə itələdi. Eyni günün axşamı Conkbayırı bölgəsinə keçərək buradakı qüvvələri də 10 avqust 1915-ci il səhərində hücuma keçirdi. Beləcə düşmənin irəliləməsinə imkan verilməmiş; əksinə tutduğu mövqelərdən tamamilə çıxarılaraq Anafartalar bölgəsinə tam mənası ilə hakim olunmuşdu.

Mustafa Kamal, bu müharibələr əsnasında şəxsən atəş xəttində olmuş, atəş xəttindən əmrlər vermiş, cəsarəti ilə yanındakı zabit və əsgərlərə çox gözəl nümunə olmuşdur. Conkbayırında ürəyini hədəf alan bir qəlpə parçası, cibindəki saata çırpılıb geri döndüyündən mütləq bir ölümdən xilas olmuşdu. Bu müharibələr əsnasında göstərdiyi qəhrəmanlıq, əzm və yüksək komandan qüdrəti, ona məmləkətin daxilində və xaricində böyük şöhrət qazandırmışdır. Artıq o, “Anafartalar Qəhrəmanı” olaraq xatırlanırdı. Bu döyüşlərdə İngilislər insan, silah və texniki



imkanlar cəhətdən Türklərdən olduqca çox idi; ancaq onların unutduqları nöqtə, Türk əsgərinin tarixi qəhrəmanlığı və bu qəhrəmanlığı istiqamətləndirən Mustafa Kamal faktoru idi.

Mustafa Kamal, 1 aprel 1916-cı ildə generallığa yüksəldildi. Diyarbəkirə gəlişini təqib edən qısa hazırlıqdan sonra 3 avqust 1916-cı ilin səhəri tabeçiliyindəki qüvvələri Bitlis və Muş istiqamətində hücuma keçirdi; Ruslarla iki alayımız arasında hücum və qarşı hücum formasında şiddətli döyüşlər oldu. Nəhayət 8 avqust 1916-cı ilin səhəri Muş, eyni günün axşamı Bitlis qüvvələrimiz tərəfindən düşmən işğalından xilas edildi. Muş; 25 avqust 1916-cı ildə təkrar Rusların əlinə keçmişdi. Mustafa Kamal Paşa, 2-ci ordu komandanlığı əsnasında, 14 may 1917-ci ildə Muşu ikinci dəfə Rus işğalından xilas etdi.

I Dünya Müharibəsi Almaniya və müttəfiqləri əleyhinə davam edirdi. 29 sentyabr 1918-ci il tarixində Bolqarıstan döyüşdən geri çəkilmiş, 4 oktyabr 1918-ci il tarixində də Almaniya sülh istəmişdi. İstanbulda Talat Paşa Kabineti istefa vermiş, yeni Kabineti Əhməd İzzət Paşa qurmuşdu. Bu hadisələr qarşısında Mustafa Kamal Paşa səlahiyyətli vəzifəlilərə hərbi və siyasi təkliflərini davam etdirdisə də yenə qəbul etdirə bilmədi. Nəhayət 30 oktyabr 1918-ci il tarixində də Osmanlı Dövləti, ittifaq dövlətləri ilə Mudros sülh müqaviləsini imzalayaraq I Dünya Müharibəsindən çəkildi.

## Müdros müqaviləsindən sonra ölkənin vəziyyəti

Mustafa Kamal Paşa, 31 oktyabr 1918-ci il tarixində "İldırım Ordular Qrupu" komandanlığına gətirilsə də artıq edəcək bir şey qalmamışdı. 7 noyabr 1918-ci il tarixində bu qrup komandanlığının da Padşahın iradəsi ilə ləğv edilməsindən sonra Adanadan hərəkatla 13 noyabr 1918-ci il günündə İstanbula gəldi. Artıq Türkiyə, sülh şərtlərini yaşayırdı və özü də hərbi nəzarət əmrinə verilmiş ordu komandiri idi.

Məmləkət və millətin içində olduğu şərtlər ağır idi. Böyük bir döyüşün sonunda, məğlub bir dövlət olaraq 30 oktyabr 1918-ci ildə "Mudros müqaviləsi" adı verilən və şərtləri ağır olan razılaşma imzalanmış, bu razılaşma şərtlərinə söykənərək məmləkətin bir çox bölgəsi qalib dövlətlər tərəfindən işğal edilmiş, ordumuz paylanmış, bütün silah və sursat qalib dövlətlərin əmrinə verilmişdi. Osmanlı məmləkətləri tamamilə parçalandığı kimi, Türkün ana yurdu, Anadolu da qalib dövlətlər arasında bölünməyə məruz qaldı. Anadolunun hər şəhərində xarici zabitlər gəzir, müttəfiq dövlətlər nümayəndəsi kimliyi ilə əmrlər verirdilər. Yunanlılar da İzmiri işğal etmək hazırlıqları ilə məşğul idi; bu yolda böyük səy göstərirlər, müttəfiq dövlətləri razı salmağa çalışırdılar. Nəhayət 15 may 1919-cu ildə bu məqsədlərinə çatdılar.

Hadisələrin bu şəkildə irəliləyəcəyini Mustafa Kamal, əvvəlcədən sezmişdi. Necə ki, Mudros sülh müqaviləsindən 5 gün sonra, 5 noyabr 1918-ci ildən etibarən hərbi nəzarətdən Mudros müqaviləsi gərəyi ordulara tərxis əmrləri gəlməyə başladı. Atatürk, eyni gün Adanadan Sədrəzəm

Əhməd İzzət Paşaya ilk xəbərdarlıq teleqrafını göndərdi: “Ciddi olaraq ifadə edirəm ki, lazım olan tədbirləri almadıqca ordunu tərxis etməyin! Əgər orduları tərxis edəcək və İngilislərin hər dediyinə boyun əyəcəyiksə düşmən ehtiraslarının qarşısına keçməyə imkan qalmayacaq.” Bu, Atatürkdə, hər şey bitdi zənn edilən bir vaxtda da qurtuluş ümidinin sönmədiyini, bir çoxlarının düşdüyü ümidsizliyə əsla özünü qapdırmadığını göstərir.

## Mustafa Kamalın öndərliyində başladılan Milli Mübarizə

Mustafa Kamal tərəfindən edilən bütün bu haqlı etirazlar təsirsiz qalır və ordunun təxrisinə sürətlə davam edilir. Çünki ümumi fikir, hər hansı bir mübarizəyə girə bilməyəcəyimiz, belə bir mübarizənin əleyhimizə nəticələnəcəyi idi. Bu halda müttəfiq dövlətlərini narazı etməyəcək, Mudros müqaviləsi şərtlərini yerinə yetirəcəkdik. İstanbul hökumətinin fikri və davranışı bu idi.

Padşahı və hökumətini əhatə edən bu ümidsizliyə baxmayaraq, millətimiz, haqsız işğallara qarşı çıxır, torpaqlarını müdafiə edir, yurdun dörd bir tərəfində yerli qüvvələrlə qarşıdurmalar yaşanırdı. Ancaq bütün ölkəni əhatə edən bir hərəkat və birlik göstərilə bilmirdi. Atatürk bu dövrü belə izah edirdi:

> *“İstanbul vətənpərvərləri tərəfindən müxtəlif adlar altında proqramlar və qruplar yaradılaraq qurtuluş yolları axtarılmaqda idi. Bunların hər birini ayrı-ayrı araşdırdım. Heç biri təsdiqləyici bir dəlilə əsaslanmırdı. Bu səbəbdən heç biri ilə əməkdaşlıq etməkdən nəticə gözləmədim. Təsdiqləyici dəlilin birbaşa millətin özü olacağı ilə bağlı qənaətim çox üstünlük təşkil edirdi. İstanbulda baş verənlərdən, edilən cəhdlərdən, xüsusilə vəziyyətin ağırlığından və kədərindən millətin xəbəri yox idi. İstanbulda oturub milləti olanlardan xəbərdar etmək imkanı da qalmamışdı. Bu səbəbdən ediləcək şeyin İstanbuldan çıxıb millətə qatılmaq və orada çalışmaq olduğuna qərar verdim.”145*



> *"Hər tərəfdə bəzi adlarla təşkilatlar yaranmağa başlamışdı. Bunları eyni proqram və ad altında birləşdirərək bütün millətin diqqətini cəlb etmək və bütün ordunu da bu məqsədə yönəltmək lazım idi. Anadoluya çatdığımda hələ ordu müfəttişi statusu və səlahiyyətləri üzərimdə ikən bu nöqtədən işə başladım və məqsəd qısa müddətdə reallaşdı."146*

Ediləcək şey "Ya istiqlal, ya ölüm!" şüarı altında milli mübarizə başlatmaq idi. Artıq Anadoluya keçərək milli mübarizə bayrağını açmaq lazım idi. Məhz bu ərəfələrdə Mustafa Kamal Paşanı İstanbuldan uzaqlaşdırmaq məqsədi ilə, doqquzuncu ordu müfəttişliyi təklif edildi. Mustafa Kamal Paşa, ona geniş səlahiyyətlər tanıyan bu vəzifəni qəbul etdi.

16 may 1919-cu il günü Bandırma gəmisi ilə İstanbuldan yola çıxan Mustafa Kamal Paşa, 19 may 1919-cu il səhəri Samsunda Anadolu torpaqlarına ayaq basdı. Onu Anadoluya göndərilmə səbəbi, "Samsunu və ətrafındakı iğtişaşları yerində görüb araşdırmaq və tədbir görmək"dən ibarət idi. Saray və İstanbul hökuməti, Mustafa Kamal Paşanın bu vəzifəni edəcəyini zənn etmişdi. Halbuki Mustafa Kamalın düşüncələri tamamilə başqa idi. Onların qərarlarına uymaq deyil, etiraz etmək lazım idi. Məhz Anadoluya bu məqsədlə gedirdi. Mustafa Kamal Paşanın İstanbuldan ayrılarkən yaxın dostlarına söylədiyi bu sözlər bu baxımdan böyük əhəmiyyət daşımaqdadır:

> *"Düşmən süngüsü altında milli birlik ola bilməz. Ancaq azad vətən torpaqlarında məmləkətin aydın və millətin azadlığı üçün çalışa bilər. Bu məqsədi təsdiqləmək üzrə Anadoluya gedirəm."*

# Nəticə

İyirminci əsr Türk Millətinin tarixində böyük bir dönüş nöqtəsi olmuşdur. I Dünya Müharibəsindən sonra, əsrlərdir 3 qitədə hökm sürən Osmanlı İmperiyası süqut etmiş və torpaqlarımız düşmən qüvvələri tərəfindən işğal edilmişdir. Güclü, müasir silah təchizatlı düşmən qüvvələrinə qarşı millətimiz birlik və bərabərlik içində qəhrəmanca mübarizə aparmış, bu şanlı mübarizənin öndəri isə Mustafa Kamal Atatürk olmuşdur. Fədakarca icra edilən bu döyüşdən millətimiz böyük zəfərlə çıxmış və Atatürkün liderliyində yeni dövlət qurulmuşdur.



Türkiyə Cümhuriyyəti yıxılmış imperiyanın qalıqlarından, əməklə ortaya çıxmışdır. Süqut etmiş, viran qalmış, övladlarını döyüşlərdə itirmiş Türk Milləti, bütün dünyaya nümunə olan bir sıçrayışla, heç yorulmadan çalışaraq Cümhuriyyət tarixini yazmağa başlamışdır. Bu böyük mübarizədə Atatürkün yanında isə hər zaman Türk Milləti, xüsusilə də Türk gəncliyi olmuşdur. Gənclər hər zaman və hər şərt altında Atatürkə dəstək olmuş, ona güvənmiş, milli mübarizənin müvəffəqiyyətlə nəticələnəcəyinə dair inanclarını hər zaman mühafizə etmişlər. Bütün enerjilərini Atatürkün Türk Milləti üçün hədəflədiyi müasir, mədəni və demokratik Cümhuriyyətin qurulmasına sərf etmiş, ortaya yıxılmaz bir əsər çıxarmışlar.

Məhz bu gün də möhtəşəm dövlətlər qurmuş, ucsuz-bucaqsız torpaqlarda dinləri, irqləri və dilləri ilə fərqli millətləri ədalət və tolerantlıqla idarə etmiş, getdiyi yerə mədəniyyət aparmış Türk Millətinin övladları, Atatürkün hədəflədiyi yolda böyük bir sürətlə irəliləməkdədirlər. Üstün əxlaqları, seçkin şəxsiyyətləri, ədalətləri, tolerantlıqları, cəsarətləri və çalışqanlıqları ilə qibtə edilən bir millət olma yolunda böyük addımlar atmaqdadırlar. Həm şanlı tarixinə sahib çıxan, həm də müasir cəmiyyətlər səviyyəsinə çatmağı əsas hədəf alan bu gənclik, kitab boyu izah edilən Atatürkün tərif etdiyi gənclikdir. Atatürkün dediyi kimi bu böyük məsuliyyəti Cümhuriyyəti quranlardan götürmüş və yüksəldib davam etməyə and içmişlər. Heç şübhəsiz ki, 21-ci əsrdə Mustafa Kamalın dünyəvi və bacarıqlı gördüyü Türk gəncliyi bu ülvi hədəfə çatacaq və bütün dünya gəncliyinə nümunəvi model meydana gətirəcək.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər



Charles Darvin

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm

irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.[8] milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər



XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)




Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilərmi? Əlbəttə ki, xeyr. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Yuxarıdakına oxşar vedrəyə canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları qısaca təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Ola biləcək hər cür kimyəvi və fiziki üsulu istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilsə, nə qədər gözlənilsə də bu vedrədən canlı tək bir varlıq belə çıxara bilməyəcəklər.

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.



Təkamül nəzəriyyəsini etibarsız edən həqiqətlərdən biri, canlılığın inanılmaz dərəcədəki kompleks quruluşudur. Canlı hüceyrələrinin nüvəsində yer alan DNT molekulu, bunun bir nümunəsidir. DNT, dörd ayrı molekulun fərqli düzülməsindən meydana gələn bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alır. İnsan DNT-si kağıza yazılsa, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı hesablanmaqdadır. Əlbəttə belə fövqəladə məlumat, təsadüf anlayışını qəti olaraq etibarsız etməkdədir.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın

kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri



Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir.

Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur



Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.



Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:



“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:



“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün

çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Darvinin puç olan ümidləri



Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:



"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı

növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)



Buğda biti Dövr: Kaynozoy erası, Oliqosen dövrü Yaş: 25 milyon il Siyənək balığı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 54-37 milyon il Bala dovşan Dövr: Kaynozoy zaman, Oliqosen dövrü Yaş: 30 milyon il

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

İnsanın təkamülü nağılı



Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir

insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens



Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)



Təkamülçülər "ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)




Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.



Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları,

qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.




Beyin işığa da, səsə də bağlıdır. Buna baxmayaraq ən dəqiq səsləri beynimizdə eşidir və ən mükəmməl görüntüləri beynimizdə görürük. Gözün və qulağın təmin etdiyi qüsursuz qəbul etmə sistemi heç bir texnologiya ilə əldə edilə bilinməmişdir. Göz və qulaq, Allahın uca rəhmətinin, üstün yaratma gücünün təcəllilərindəndir.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?



Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində bir təsir meydana gətirirlər. Görürəm deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edərik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər girə bilməz. Görüntü mərkəzi deyilən yer qapqaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir

yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də

elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)*

وَاِذْ اَخَذَ رَبُّكَ مِنْ بَنٖى اٰدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ
وَاَشْهَدَهُمْ عَلٰٓى اَنْفُسِهِمْ اَلَسْتُ بِرَبِّكُمْ قَالُوا بَلٰى
شَهِدْنَا اَنْ تَقُولُوا يَوْمَ الْقِيٰمَةِ اِنَّا كُنَّا عَنْ هٰذَا غَافِلٖينَ

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)*

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)*

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)*

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

*Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)*

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

*...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)*

# ƏDƏBİYYAT


1. http://ozgur_cosgun.sitemynet.com/37.htm

2. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 20

3. http://www.meb.gov.tr/belirligunler/24kasim/ataturk/ogretmen_degeri.htm, Şemsettin Günaltay, 1951, Olağanüstü Türk Dil Kurultayı, səh. 32

4. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 32

5. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 32

6. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 19

7. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 19

8. http://www.kimyaokulu.com/Ataturk/genclik.htm

9. Akil Aksan, "Atatürk Der ki", Kültür Bakanlığı Yayınları, Ankara, may 1981-ci il, səh.101

10. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 31

11. Ceyhun Atuf Kansu, "Ya Bağımsızlık ya Ölüm", Bilgi Yayınevi, Ankara, 1997, səh. 98

12. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh.31

13. "Atatürk Konferansları", 1998, 75-ci il, Atatürk Araştırma Merkezi, Divan Yayıncılık, Ankara, 2000, səh. 194

14. http://www.geocities.com/ftutumlu2002/ozdeyis.htm

15. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994, səh. 37

16. http://www.kimyaokulu.com/Ataturk/genclik.htm

17. http://www.kimyaokulu.com/Ataturk/genclik.htm

18. "Milli Mücadele'nin 80. Yıldönümü'nde Atatürk ve Türkiye Cumhuriyeti Panel ve Konferanslar ((18-19 may 1999, Samsun ve İlçülüri)", Atatürk Araştırma Merkezi, Divan Yayımcılık, Ankara, 2000, səh.34)

19. http://sahinrecep.kolayweb.com/diyorki.html

20. http://sahinrecep.kolayweb.com/diyorki.html

21. Akil Aksan, "Atatürk Der ki", Kültür Bakanlığı Yayınları, Ankara, may 1981-ci il, səh. 98

22. http://ozgur_cosgun.sitemynet.com/392.htm

23. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Ankara, 1987, səh. 33

24. "Atatürk Konferansları (1998-75.yıl -Yurtiçi)", Atatürk Araştırma Merkezi, Divan Yayıncılık, Ankara, 2000, səh. 92

25. "Atatürk ve Gençlik", Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 34

26. Vural Sözer, "Atatürklü Günler", Barajans Yayınları, İstanbul, 1998, səh. 206

27. http://ozgur_cosgun.sitemynet.com/37.htm

28. Cemal Kutay, "Ne Buldu, Ne Bıraktı?", Yaşar Eğitim ve Kültür Vakfı, İzmir, səh. 180

29. Fethi Naci, "Atatürk'ün Temel Görüşleri", səh. 54

30. http://bilecik.meb.gov.tr/ust/diyorki.htm

31. http://zonguldak.meb.gov.tr/ataturk/sayfalar/egitim.htm

32. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994, səh. 43

33. http://www.geocities.com/yilmazaynali/ataturk/ataturkilkeleri.htm

34. Afet İnan, "Medeni Bilgiler ve Atatürk'ün El Yazıları", səh. 21

35. http://www.atamizindeyiz.com/01/ata14.htm

36. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 68

37. Vural Sözer, “Atatürklü Günler”, Barajans Yayınları, İstanbul, 1998, səh. 206

38. http://www.geocities.com/dauadk/atadiyor.html

39. Afet İnan, “Atatürk Hakkında Hatıralar ve Belgeler”, səh. 309

40. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 72

41. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 72

42. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994, səh. 73

43. http://www.kimyaokulu.com/Ataturk/genclik.htm

44. http://yayim.meb.gov.tr/yayimlar/medergi/11.htm

45. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

46. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 52

47. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

48. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

49. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

50. 1919, Nutuk I, səh. 13

51. 1921, Nutuk II, səh. 623-624

52. 1919, Nutuk I, səh. 13

53. 1919, Nutuk I, səh. 13

54. http://ozgur_cosgun.sitemynet.com/31.htm

55. http://ozgur_cosgun.sitemynet.com/31.htm

56. http://ozgur_cosgun.sitemynet.com/31.htm

57. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 34

58. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 34

59. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 35

60. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

61. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

62. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

63. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 35

64. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

65. http://www.kutludava.com/ataturk/ozellikler.htm

66. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994, səh. 54

67. http://tadevrimi.sitemynet.com/turkgencligi0.htm

68. http://ozgur_cosgun.sitemynet.com/48.htm

69. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

70. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994, səh. 55

71. Necati Çankaya, “Atatürk'ün Hayatı, Konuşmaları ve Yurt Gezileri”, səh. 225

72. Adnan Nur Baykal, “Mustafa Kemal Atatürk'ün Liderlik Sırları”, Sistem Yayıncılık, səh. 81

73. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

74. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

75. Cahit İmer, “Atatürk'ten Seçme Sözler”, səh. 171

76. Falih Rıfkı Atay, “Atatürk'ün Hatıraları”, 1914-1919, səh. 92

77. “Atatürk ve Gençlik”, Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 20

78. “Atatürk ve Gençlik”, Milli Eğitim Gençlik ve Spor Bakanlığı, Milli Eğitim Basımevi, Ankara, 1987, səh. 72

79. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

80. Sadi Borak, “Bilinmeyen Yönleriyle Atatürk”, səh. 82

81. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

82. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

83. Cahit İmer, “Atatürk'ten Seçme Sözler”, səh. 108

84. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 37

85. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 22

86. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

87. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

88. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

89. http://www.geocities.com/yeremlis/kisiseloz.html

90. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

91. http://www.kho.edu.tr/yayinlar/btym/yayinlistesi/yayinlar/yayin2000/228-atat%FCrkdevlety%E7netimianlayisi%20dogupasa.htm

92. http://www.geocities.com/yeremlis/kisiseloz.html

93. http://www.ugurzel.com/lider_portre/ataturkun_ileri_gorus.htm

94. Cemal Kutay, “Atatürk'ün Son Günleri”, səh. 94

95. http://yayim.meb.gov.tr/yayimlar/medergi/11.htm

96. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

97. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

98. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

99. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

100. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

101. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

102. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

103. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

104. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

105. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

106. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

107. http://yayim.meb.gov.tr/yayimlar/temmuz/3.htm

108. Seyit Kemal Karaalioğlu, “Resimlerle Atatürk: Hayati, İlkeleri, Devrimleri”, səh. 257

109. http://ataturk.yargitay.gov.tr/hukuk/30agustos.html

110. http://www.tekadam.8k.com/15.html

111. Seyit Kemal Karaalioğlu, “Resimlerle Atatürk: Hayati, İlkeleri, Devrimleri”, səh. 257

112. http://www.tekadam.8k.com/15.html

113. http://www.tekadam.8k.com/15.html

114. http://www.tekadam.8k.com/15.html

115. http://www.tekadam.8k.com/15.html

116. http://www.tekadam.8k.com/15.html

117. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 76

118. “İşte Atatürk”, Tempo Kitapları-11, may 1994-cü il, səh. 76

119. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 77

120. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 77

121. Hasan İzzet Dinamo, "Kutsal Barış", 4-cü cild, səh. 551

122. "Milli Mücadele'nin 80. Yıldönümü'nde Atatürk ve Türkiye Cumhuriyeti Panel ve Konferanslar (18-19 may 1999-cü il, Samsun ve İlçeleri)", Atatürk Araştırma Merkezi, Divan Yayımcılık, Ankara, 2000, səh. 39

123. Cemal Kutay, "Ne Buldu, Ne Bıraktı?", Yaşar Eğitim ve Kültür Vakfı, İzmir, səh.181

124. Afet İnan, "Medeni Bilgiler ve M. K. Atatürk'ün El Yazıları", 1969, səh. 20-21

125. Cahit İmer, "Atatürk'ten Seçme Sözler", səh. 137

126. http://ozgur_cosgun.sitemynet.com/37.htm

127. 1922, "Atatürk'ün SD II", səh. 43

128. http://ozgur_cosgun.sitemynet.com/37.htm

129. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 43

130. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 44

131. Mehmet Özel, "Atatürk", T.C. Kültür Bakarnlığı, Ankara, 2001, səh. 146

132. Mehmet Özel, "Atatürk", T.C. Kültür Bakarnlığı, Ankara, 2001, səh. 146

133. http://www.geocities.com/dauadk/atadiyor.html

134. http://www.gazi.edu.tr/ataturk/sozler.htm

135. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 88-89

136. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 90

137. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh.10

138. http://www.karatekin.com/1ataturk/Ataturkun_kisiligi/Ataturkunkisiligi.htm

139. http://www.karatekin.com/1ataturk/Ataturkun_kisiligi/Ataturkunkisiligi.htm

140. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 10

141. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 12

142. http://www.karatekin.com/1ataturk/Ataturkun_kisiligi/Ataturkunkisiligi.htm

143. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 14

144. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 16

145. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 17

146. "İşte Atatürk", Tempo Kitapları-11, may 1994-cü il, səh. 17

ADNAN OKTAR (HARUN YƏHYA)

# ATATÜRK VƏ GƏNCLİK

Gənclik hər millət üçün əhəmiyyətli qüvvədir. Şüurlu və məsuliyyət sahibi gənclik, o millətin ümididir, gələcəyinin zəmanətlərindəndir. Xüsusilə də gənc əhaliyə sahib olan Türkiyə üçün bu imkanın yaxşı qiymətləndirilməsi, Türk Millətinin layiq olmuş olduğu mədəni cəmiyyətlər səviyyəsinə çatması üçün lazımlıdır. İçində yer aldığı coğrafiya və sahib olduğu tarixi miras Türk Millətinin üzərinə çox əhəmiyyətli məsuliyyətlər yükləməkdədir. Aydın, milli dəyərlərini qoruyan, uzaqgörən gənc bir nəslin yetişməsi, sahib olduğumuz şanlı tarixlə birləşdirildiyində, Türkiyə sadəcə inkişaf etmiş cəmiyyətlər səviyyəsinə çatmaqla qalmayacaq, olduqca geniş coğrafiyada bir çox ölkəyə liderlik edə biləcək mövqeyə gələcəkdir.

Bu kitabın məqsədlərinin başında, bir tərəfdən Atatürkün gəncliyə olan baxış prizmasını ələ alarkən, bir tərəfdən də gənclərin Atatürkü doğru anlamalarına kömək olmaq gəlməkdədir. Unudulmamalıdır ki, Türkiyənin gələcəyi, Mustafa Kamal Atatürkün hamımıza vəsiyyət etmiş olduğu kimi, vicdanlı, sağlamfikirli, gözəl əxlaqlı, dindar, müasir, qabaqcıl, vətənpərvər, milliyyətçi, itaətli, şəxsiyyətli bir nəslin yetişdirilməsinə və bu nəslin əzminə, şövqünə və işlərinə bağlıdır.

## MÜƏLLİF HAQQINDA

Harun Yəhya təxəllüsünü istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan oldu. 1980-ci illərdən bu yana, imani, elmi və siyasi mövzularda bir çox əsərlər hazırladı. Bunlarla birlikdə, yazarın təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri var.

Yazarın bütün əsərlərindəki ortaq hədəf, Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğın tətbiqlərini gözlər önünə sərməkdir. Necə ki, yazarın bu günə qədər 73 ayrı dilə tərcümə edilən 300-dən çox əsəri, dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən izlənilməkdədir.

Harun Yəhya Külliyyatı, (Allahın icazəsi ilə) 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa vəsilə olacaq.

**HARUN YƏHYA**

(ADNAN OKTAR)